# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 9 oktyabr 2020-ci il: yuxuların Hadrutundan gerçəklərin Hadrutuna




4

SƏS

№ 184 (7352)

9 oktyabr 2025-ci il.
Qiymətı 60 qəpik

# MÜDRİK LİDER, QALİB SƏRKƏRDƏ!



2

Prezident İlham Əliyev: "Ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır"

# Bişkekdən Qəbələyə

### Türk Dövlətlərinin nailiyyətləri və gələcəyə baxışları



6

## Yasda əsas məqsəd nədir - dua, yoxsa nümayiş?



9

## Ənənəvi poçtun transformasiyası: zaman tələb edir ki...



10

## Azərbaycanda etibarnamə sistemi nə zaman ləğv edilə bilər?



16

## Yazıq hərflər, nöqtələr, vergüllər...



11

## Dəyərlərimizi dəyərdən salanlar



5

# MÜDRİK LİDER, QALİB SƏRKƏRDƏ!

## Prezident İlham Əliyev: "Ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır"

Azərbaycan Prezidenti İlham Əliyev son 22 ildə xalq qarşısında verdiyi bütün vədləri səylə, ardıcıl və sistemli surətdə yerinə yetirərək, xalqın Liderinə, Sərkərdəsinə çevrildi. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə böyük inam və əminlik yaradır. Dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmiz bütün sahələr üzrə sürətli inkişaf yoluna qədəm qoydu. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərək bildirmişdi: "İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu inam Ulu Öndərin siyasi varisi Cənab İlham Əliyevin üzərinə böyük məsuliyyət qoyurdu.

Dövlət başçısının verdiyi bütün vədlər və təqdim etdiyi proqramlar yerinə yetirilib. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Odur ki, xalqımız 2003-cü il oktyabrın 15-də, 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də və 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində də Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi.







### 9 OKTYABR 2013-CÜ İL - GÜCLÜ XALQ, GÜCLÜ DÖVLƏT, GÜCLÜ LİDER VƏHDƏTİ

2013-cü il oktyabrın 9-da Azərbaycanda keçirilən prezident seçkiləri ölkəmizin tarixinə mühüm hadisə kimi düşdü. Ölkə vətəndaşlarının səsvermədəki fəallığı seçkiləri müşahidə edən xarici ekspertlərin diqqətindən yayınmadı. Müşahidəçilərin hamısı bu amili yüksək qiymətləndirərək son illərdə ölkəmizdə demokratik proseslərin uğurla getdiyini, prezident seçkilərinin azad və şəffaf keçirildiyini bildirdilər.

Azərbaycan vətəndaşları 2013-cü ildə yenidən öz səslərini İlham Əliyevə verdilər. Əslində, Azərbaycan xalqı bu növbəti seçkidə son 10 ildə qazanılan böyük nailiyyətlərə, sürətli inkişafa və qazanılan uğurların davam etdirilməsinə səs verdi. Çünki Azərbaycan dövlətinin siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmləndi, ölkəmizin dünyadakı nüfuzu artdı. Dövlətimizin başçısının uğurlu fəaliyyət modeli bütün dünyanın qabaqcıl ölkələri tərəfindən qəbul olundu. Həyata keçirilən qlobal və regional layihələr ölkəmizin dünyaya inteqrasiyasını sürətləndirdi. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrildi.

Azərbaycan dünyada güclü və nüfuzlu dövlət və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf əldə olunan nailiyyətlərdir. Tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb.

Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə güclənməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar miqyasına görə, heç bir ölkədə müşahidə olunmur. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə qayğı və s. dövlətin öz vətəndaşlarına olan qayğısının təzahürüdür. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir.

### BÖYÜK SİYASİ VƏ DİPLOMATİK QƏLƏBƏMİZ

Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər: "Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmayıb. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var". Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Cənab Prezident "Bizim siyasətimiz, addımlarımız, xoş niyyətimiz və xarici siyasətimizin əməkdaşlıq üzərində qurulması bizə böyük dostlar düşərgəsi qazandıra bilmişdir. Təsadüfi deyildir ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə üzv seçilmişdir. Bu, bizim böyük siyasi, diplomatik qələbəmizdir, müstəqil Azərbaycanın böyük uğurudur", - deyə bildirmişdir.

### İNSANLARIN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ DAİM DÖVLƏTİN DİQQƏT MƏRKƏZİNDƏDİR

Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində, bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilmiş, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılmış, bu da sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafında yeni mərhələ oldu və sahibkarlığın inkişafı üçün geniş imkanlar açmış oldu.

Ardı Səh. 3

# MÜDRİK LİDER, QALİB SƏRKƏRDƏ!

## Prezident İlham Əliyev: "Ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır"



Əvvəli Səh. 2

Həyata keçirilən tədbirlərin, reallaşan dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamı ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn kompleks tədbirlər sırasında əhəmiyyətli Sənəddir. Sərəncam aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də, kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaratmış oldu.

Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə gücləndirilməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yatmış oldu. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Davamlı olaraq, islahatların həyata keçirilməsi vətəndaşların rifahının daha da yüksəldilməsinin, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsinin daim dövlətin diqqət mərkəzində olduğunun əyani göstəricisidir. Bildiyimiz kimi, 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil oldu. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq, həyata keçirildi. Bu, bir daha göstərmiş oldu ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə, qaçqın və məcburi köçkünlərə qayğı, minimum əməkhaqqının, minimum pensiyanın və sosial müavinətlərin artırılması istiqamətində görülən işlər, problemli kreditlərin həll olunması dövlətin öz vətəndaşlarına olan qayğısının təzahürünə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafın təmin olunmasına imkan yaratmaqla bərabər və demoqrafiya sahəsində müsbət meyilləri də stimullaşdırıb. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artaraq, 10 milyonu ötən ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla, demoqrafik inkişafa təkan verir.

### ƏN YENİ TARİXİMİZİN ZƏFƏR SƏRKƏRDƏSİ

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb oldu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilib. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayiş etdirdi.

Azərbaycanın hərbi potensialının möhkəmləndirilməsi və silahlı qüvvələrinin Cənubi Qafqazın ən güclü ordusuna çevrilməsi sahəsində Prezident İlham Əliyevin rəhbərliyi altında böyük işlər görülüb. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını 44 günlük Vətən müharibəsində erməni işğalı altında olan əraziləri azad edərək əzəli torpaqlarımızda dalğalandırdı. Gənc, müstəqil dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi, məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində Zəfər qazandıq. Ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 il müddətində davam edən işğala cəmi 44 gün müddətində son qoymağı bacardı, Ermənistanı diz çökdürdü, təslim olmağa məhkum etdi. Və Ali Baş Komandan İlham Əliyev ən yeni tariximizə Zəfər sərkərdəsi kimi öz möhrünü vurdu.

Bu gün Azərbaycan yeni bir dövrünü yaşayır. İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir. Artıq görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyə Prezident bildirmişdir. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlarından birinə çevrilib.

### "VERDİYİM BÜTÜN VƏDLƏR, QARŞIMA QOYDUĞUM BÜTÜN VƏZİFƏLƏR İCRA EDİLDİ"

2024-cü il fevralın 7-də Azərbaycanda şəffaf şəkildə keçirilən növbədənkənar Zəfər seçkiləri ölkənin demokratik inkişaf tarixinə daha bir uğur səhifəsini yazdı. Müstəqillik tariximizdə ilk dəfə olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa edən bütöv Azərbaycanda keçirilən seçkilər hər bir azərbaycanlını qürurlandırdı. Azərbaycan yeni dövrə qədəm qoydu. Təsadüfi deyil ki, Cənab İlham Əliyev MSK-nın yekun protokoluna əsasən, 92,12 faiz səslə yenidən prezident seçkilərində qalib gəldi. Yeni dövrün başlanğıcı kimi dəyərləndirilən bu seçkilər ölkəmizin qarşısında yeni imkanlar yaradır. 30 illik torpaq həsrətinə son qoyan tarixi Zəfərimizin, həmçinin ərazi bütövlüyümüzün və suverenliyimizin müəllifi olan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşən xalq qalib Liderinə səs verməklə bir daha təsdiqlədi ki, xalq-Prezident birliyi, həmrəyliyi sarsılmazdır.

Suverenliyimizi bərpa edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin Üçrəngli Bayrağımızı Xankəndi şəhərində ucaltdıqdan sonra xalqa müraciətində bildirdiyi fikirləri xatırlatmaq yerinə düşərdi. Cənab İlham Əliyev bildirmişdir ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat bu müqəddəs məqsədə doğru getdik".

Bu seçkilər Azərbaycan üçün tam bir demokratik bayram oldu. İlk dəfə seçkilər Azərbaycanın bütün ərazilərində keçirildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artıraraq, xalqın güzəranını və rifahını dönmədən yüksəldərək, ərazi bütövlüyümüzü təmin edərək və suverenliyimizə imza ataraq xalqın alternativsiz Liderinə çevrilib.

Bu gün Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır. 30 ildən sonra ilk dəfə olaraq ərazi bütövlüyümüz tam təmin edilmiş şəkildə seçki keçirildi və bu seçki bütün ölkə ərazisini əhatə etdi. Keçmiş məcburi köçkünlər yurdlarında seçici olaraq səs verdilər. Bu da daha bir tarixi hadisəyə çevrildi. Əlbəttə ki, Zəfər seçkiləri yeni dövrün başlanğıcıdır. Seçkilərdə qazanılan bu Zəfər Azərbaycan xalqının Prezidentinə inamının, etimadının təzahürüdür.

Cənab İlham Əliyevin növbəti 7 il üçün Prezident seçilməsi öz tarixinin yeni mərhələsinə qədəm qoyan Azərbaycan üçün ən uğurlu başlanğıcdır. Ermənistanla sülhün əldə olunması, azad olunmuş torpaqlara Böyük Qayıdış kimi nəhəng işlər, vəzifələr durur. Xalq məhz gələcək işıqlı taleyini yalnız öz sınanmış LİDERİ İLHAM ƏLİYEVƏ etibar edə bilərdi. Qarşıda Azərbaycanı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yeni nailiyyətlər və yeni qələbələr gözləyir.

***Zümrüd BAYRAMOVA***

## Prezident İlham Əliyev Xorvatiya parlamentinin nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Xorvatiya parlamentinin sədri Azərbaycana ilk dəfə səfər etdiyini deyərək, paytaxt Bakının gözəlliyinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Qordan Yandrokoviç Prezident İlham Əliyevi Azərbaycan dövləti və xalqı naminə gördüyü işlərə və xidmətlərinə görə təbrik etdi. Qonaq, həmçinin Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəliyə aparılması istiqamətində əldə edilmiş nəticələr münasibətilə də təbriklərini çatdırdı.

Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin yaxşı səviyyədə olduğunu deyən Qordan Yandrokoviç parlamentlərarası münasibətlərin daha da genişləndirilməsi üçün imkanların mövcud olduğunu vurğuladı. Hər iki ölkədə parlamentlərarası dostluq qruplarının fəaliyyət göstərdiyini qeyd edən qonaq dostluq qrupları ilə yanaşı, müxtəlif parlament komitələri arasında da əməkdaşlığın vacibliyinə toxundu.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət kəsb etdiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi. Xorvatiyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafını daim dəstəkləməsi vurğulandı.

Görüşdə ikitərəfli münasibətlərin dostluq və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiyi bildirildi, enerji, sərmayələr, turizm və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu diqqətə çatdırıldı, ölkələrimizin beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində əlaqələrinin inkişaf perspektivləri müzakirə olundu.

# 9 oktyabr 2020-ci il: yuxuların Hadrutundan gerçəklərin Hadrutuna

***Prezident İlham Əliyev: Doğma Qarabağ torpağında artıq gəlib yerləşdiniz. Burada bir neçə kəndin sakinləri görüşə gəlib. Bu gün bir neçə kənddə olmuşam, sabah da davam edəcək. Bütün Qarabağ artıq tam nəzarət altındadır və bildiyiniz kimi, bu ərazi iki il bundan əvvəl işğalçılardan azad edildi. Elə bu günlərdə - sentyabrın 19-20-də şanlı Ordumuz separatçılığa son qoydu. Onunla da separatçılığın kitabı bağlandı və Azərbaycan tam suverenliyini bərpa etdi. "Böyük Qayıdış" Proqramı da uğurla icra edilir. Biz təqribən iki aydan sonra tarixi Zəfərimizin beşillik yubileyini qeyd edəcəyik.***

2020-ci ilin sentyabrında başlayıb 44 gün davam edən Vətən müharibəsi digər işğal altında olan torpaqlarımız kimi, Hadrutu da azadlığına qovuşdurdu. 9 oktyabr Azərbaycan tarixinə Hadrutun azad olunması kimi qızıl hərflərlə yazıldı. Bu gün Hadrutda Azərbaycan bayrağı dalğalanır və bu bayrağın dalğası altında yurd yerimizə yeni həyat gəlir. Burada aparılan bərpa işləri Hadruta yeni həyatın verilməsi ilə yanaşı, həm də sakinlərinin hər birinin tezliklə ata-baba ocağına qayıtmasına xidmət edir.



## Hadruta qısa səyahət...

Hadrut-təbiətin iki çayın arasına sığdırdığı bu qədim Azərbaycan torpağı adının mənasından və coğrafiyasından da göründüyü kimi, həm də təbiətin bütün gözəlliklərini özündə ehtiva edir. Bu yurd yeri zaman-zaman milli ənənələrimizi qorumuş, xalçaçılıq, baramaçılığı, ticarəti və müxtəlif sənətkarlıq növlərini, xalqımıza məxsus əkinçilik mədəniyyətini yaşatmışdır.

Dəqiq salınma vaxtı məlum olmayan qəsəbə həm qədim, həm də orta əsr dövrünə aid abidələrlə zəngin olub. Qəsəbənin adı 1727-ci ildə Osmanlı qaynaqlarında Dizaq nayihəsinin Hadrut kəndi olaraq keçir. Çar dövründə Hadrut kəndi Yelizavetpol quberniyasının Cəbrayıl qəzasının tərkibində idi. Bura 1847-ci ildən Poltava atlı kazak alayının qərargahı idi.

1872-ci ildə Moskvada keçirilmiş Politexnik sərgisində iki sakininin təqdim etdiyi xalçalara görə gümüş mükafata layiq görülməsi, 1877-ci ildən burada Zurabov, Muradov və şəriklərinə məxsus baramaaçma karxanasının fəaliyyət göstərməsi Hadrutun inkişaf etmiş bir ərazi olduğunu şərtləndirir. Əhali bağçılıq, bostançılıq, taxılçılıq, maldarlıq, ticarət və sənətlə məşğul idi. Hadrutda o dövrdə iki bazar, kilsə, ikiillik məktəb, birillik prixod məktəbi, zemstvo əczaxanası və teleqraf stansiyası fəaliyyət göstərirdi.

1923-cü ildə Hadrut kəndi Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin (hazırda bu muxtariyyət ləğv olunub) tərkibinə verilmişdir, 1930-cu ildə isə yeni yaradılmış Dizaq rayonunun inzibati mərkəzi seçilmişdir. 1939-cu ildə həmin rayon öz mərkəzinin adına uyğun olaraq Hadrut rayonu adlandırılmışdır. 1963-cü ildə Hadruta şəhər tipli qəsəbə statusu verilmişdir. Qəsəbədə üzüm emalı zavodu, xalça sexi, musiqi və ümumtəhsil məktəbləri, mədəniyyət evi, mərkəzi kitabxana və rayon xəstəxanası yerləşirdi.

Bəstəkar Üzeyir Hacıbəyov gənc yaşlarında Hadrutda müəllimlik edib.

1992-ci ildə Hadrut rayonu ləğv olunub Xocavənd rayonunun tərkibinə daxil edilib. 2 oktyabr 1992-ci ildə -Birinci Vətən müharibəsi zamanı separatçı erməni qoşunları Hadrutu ələ keçirmişdi.

## Beləliklə, 30 ilə yaxın...

Ermənilərin havadarlarından aldıqları dəstəklə digər torpaqlarımız kimi, Hadrut da işğal olunmuşdu. Hadrut sakinləri də minilliklər boyu diş-dırnaqları ilə qurub-yaratdıqları ev-eşiklərini, həyat-bacalarını, mal-heyvanlarını, əkin sahələrini bar üstündə qoyub düşmən tərəfindən silah gücü ilə doğma ocaqlarını tərk etmişlər.

Hadrut sakinləri 30 ilə yaxın idi ki, yurd həsrəti ilə, bir gün doğma el-obalarına qayıtmaq ümidi ilə yaşayırdı. Hadrut sadəcə onların yuxularının Hadrutu olmuşdu. 30 ilə yaxın idi ki, yurd həsrəti sinələrinə dağ çəkirdi...

Erməni adlı xislətsiz, nankor isə torpaqlarımızı talan edir, yeraltı-yerüstü sərvətlərimizi daşıyıb satır, abidələrimizi, sosial obyektləri dağıdır, illərlə insanların min bir arzu ilə özünə qurduğu yuvaları məhz edir, daşı daş üstündə qoymurdu. Bütün bunları bilirdi hadrutlular. O səbəbdən bağırları çatlayırdı. Yurdlarında qoyub gəldikləri hər şey onların doğması idi, əllərinin zəhməti idi, reallaşan, lakin qısaömürlü arzuları idi.

Lakin o gün gələcəkdi, torpaqlarımız işğaldan azad olunacaqdı. Mərdliyi, igidliyi, qəhrəmanlığı ilə tarixə imzasını atan azərbaycanlılar torpaqlarını erməni işğalı altında qoymayacaqdı ki... Lakin bunun zamanı çatmalı idi, buna hazır olmalı idik. Olduq da. 2020-ci ildə Ali Baş Komandanın ətrafında birləşən xalq müzəffər sərkərdənin rəhbərliyi ilə torpaqlarımızı bir-bir azad etdi. Üçrəngli bayrağımız azad ellərə sancıldı. Düşmən qovulub torpaqlarımızdan çıxarıldı. Hadrut da azadlığına qovuşdu. Bu xəbər hadrutluların sevincinə, xoşbəxtcəsinə nəfəs almasına səbəb oldu.

Hələ müharibə bitməmişdi, dövlətimizin başçısının tapşırığına əsasən artıq azad edilmiş ərazilərdə bərpa işlərinə start verilmişdi. Hadrut müharibənin ilk ongünlüyündə azad edildiyi üçün burada da müəyyən işlərə başlanmışdı.

Bu gün artıq Hadruta yeni həyat bəxş olunur. Hadrutlular doğma yurdlarına qayıdıb və yaxın zamanda onların hər birinin qayıtması da reallaşacaq. Sentyabrın 14-də dövlətimizin başçısı cənab İlham Əliyevin Xocavənd rayonuna səfəri çərçivəsində gördüklərimiz bunu söyləməyə imkan verir.

## 10 ailə, ümumilikdə 41 nəfər öz dədə-baba yurdu Hadruta qayıdıb

Hadrut qəsəbəsi də digər torpaqlarımız kimi, 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı erməni işğalından azad edildəndən sonra burada genişmiqyaslı abadlıq-quruculuq layihələri icra olunub və hazırda da bu istiqamətdə işlər davam etdirilir.

Bu il sentyabrın 14-də qəsəbədə olan dövlətimizin başçısına burada həyata keçirilmiş işlərlə bağlı verilən məlumatda deyilirdi: "Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi, yeni hərbi hissə, ümumi uzunluğu 12,5 kilometr olan Füzuli-Hadrut avtomobil yolu istifadəyə verilib, transformator məntəqəsi tikilib, mövcud elektrik xətləri bərpa olunub, 8 su anbarı təmir edilib, yeni su, kanalizasiya və qaz xətləri çəkilib, qəsəbədaxili yollarda təmir işləri aparılıb. Qəsəbədə zəruri sosial infrastruktur, o cümlədən hotel, ticarət və ictimai-iaşə obyektləri yaradılıb.



Hadrut qəsəbəsində ümumilikdə 541 ev var ki, onlardan da 462-si yararsız, 79-u isə qismən yararlıdır. Bu evlərdən 10-u artıq istismara hazırdır. Qismən yararlı evlərin hamısı ilin sonunadək bərpa ediləcək. Hazırda 10 ailə, ümumilikdə 41 nəfər öz dədə-baba yurduna qayıdıb. Dövlətimizin başçısı qəsəbə sakini Zahid Mustafayevin evində olub, ailə üzvləri ilə söhbət edib.

## Dini-tarixi abidələrimiz bərpa olunur

Yurd yerlərimiz işğal ediləndən sonra düşmən bu torpaqlardakı sosial, ictimai binalarla yanaşı, həm də mədəni və dini abidələrimizi də dağıtmış, yerlə yeksan etmişdir. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövləti həmin ərazilərimizdə Ermənistan tərəfindən dağıdılmış dini-tarixi abidələrin əvvəlki görünüşünə uyğun bərpası, həmçinin yeni məscidlərin inşası istiqamətində ardıcıl işlər görür.

Dövlətimizin başçısı tərəfindən Hadrut qəsəbəsində 2021-ci ilin oktyabrında təməli qoyulan yeni məscidin sentyabr ayında səfəri zamanı açılışı oldu.

Məscidin minarəsinin hündürlüyü 25 metrə yaxındır. Burada eyni vaxtda 210 nəfərin ibadət etməsi mümkün olacaq. Birinci mərtəbə kişilərin, ikinci mərtəbə isə qadınların ibadət etməsi üçün nəzərdə tutulub. Məscidin fasadında milli ornamentlərə uyğun xüsusi bəzək elementlərindən istifadə olunub.

## Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur

Prezident İlham Əliyevin hər dəfə Qarabağa və Şərqi Zəngəzura səfəri zamanı onlarla yeni sosial ünvan həyata vəsiqə alır. Sentyabrdakı səfərində də bir neçə rayonun qəsəbə və kəndlərində yeni ünvanlar sakinlərin istifadəsinə verildi. Eyni zamanda yeni kəndlərin, obyektlərin təməli qoyuldu.

Dövlətimizin başçısının səfər çərçivəsində Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşü zamanı çıxışı qürurverici anları ilə hər kəsin yaddaşına həkk oldu: Bu gün biz bu gözəl Qarabağ diyarında yığışmışıq. Bunun əsas səbəbi xalqımızın birliyidir və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə almasıdır. Biz bütün dünyaya sübut etmişik ki, güclü xalqıq, iradəli xalqıq, döyüş meydanında da qələbə qazanmışıq, sülhə də hər zaman hazır idik. Amma sülh ədalətli sülh olmalı idi, beynəlxalq hüquq və tarixi ədalət üzərində sülh olmalı idi. Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi. 2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik. Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır. 44 gün və bir gün - heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmamışdır. Bununla fəxr edirik. Fəxr edirik, necə ki, müharibədə döyüşmüşük, vuruşmuşuq, eləcə də sülh şəraitində qurub-yaradırıq. Ermənilər bizim torpaqlarımızı viran qoyublar. Sizin yaşadığınız kənd və şəhərləri yerlə-yeksan etmişdilər. Özlərinin yaşadıqları şərait elə idi ki, necə deyərlər, özünə hörmət edən insan heç vaxt orada yaşamazdı. Amma görün, biz beş il ərzində şəhərlər, kəndlər, körpülər, tunellər, su anbarları, elektrik stansiyaları qurmuşuq. Yəni, burada - Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Əsas odur ki, Azərbaycan xalqı rahat yaşasın, xoşbəxt yaşasın, sülh içində yaşasın.

***

Bütün bunları seyr etdikcə ürəyimiz dağa dönür. Hansı ki, ürəyimizə 30 il dağ çəkilmişdi. Düşmən ərazilərimizdə daşı daş üstündə qoymamışdı. Tariximizin, mədəniyyətimizin məhvi üçün min bir oyuna, xəyanətə əl atmışdı. Bu baxımdan azad edilən torpaqlarımızın hər birində gördüklərimizi böyük sevinc və xoşbəxtliklə qarşılayırıq. Yeni həyatın astanasında olan Hadrut kimi...

Budur, Hadrutun üzü gülür. Onu azad edən ordunun müzəffər sərkərdəsi bu gün də qədim yurd yerinin bərpasını, yaxın gələcəkdə sakinlərinin hər birinin ona qovuşmasını təmin edir.

Baxdıqca qürur duyuruq. Qürur duyuruq ki, torpağımızın hər bir qarışını sevən, qoruyan, əzizləyən dövlət başçımız var. Axı biz bu torpaqları 90-cı illərdə satanları da görmüşdük. Prezidentimiz onların səhvini düzəltməklə yanaşı, həm də bu xalqın nümayəndələrini öz doğma ocaqlarına qovuşdurmağa çalışır.

Bu işlər asan işlər deyil. Böyük zəhmətin, məsuliyyətin, bacarıq və qabiliyyətin, bir də Vətən sevgisinin bəhrəsidir. Bax, qüruru da məhz buna görə duyuruq. Bir də ona görə qürur duyuruq ki, həqiqətən də bu gün dünyanın heç bir yerində Qarabağda və Zəngəzurda gedən quruculuq işləri yoxdur. Yuxuların Hadrutundan gerçəklərin Hadrutuna çevrilən bu yurd yerini hələ qarşıda daha xoş günlər gözləyir.

***Mətanət Məmmədova***

# “Azərbaycanın müstəqilliyinin bərpası və xarici siyasət strategiyası”

***Oktyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə ”Konstitusiya və Suverenlik İli” çərçivəsində ”Azərbaycanın müstəqilliyinin bərpası və xarici siyasət strategiyası” mövzusunda tədbir keçirilib.***




XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzində keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, bu gün Azərbaycan yerləşdiyi bölgədə baş verən siyasi, iqtisadi və geostrateji proseslərə təsir göstərmə gücünə malik bir ölkəyə çevrilib. Azərbaycan xarici siyasət sahəsində əlaqələrini əhəmiyyətli dərəcədə genişləndirib və beynəlxalq arenada daha güclü bir mövqe tutmağı bacarıb.



B.Nəbiyev söyləyib ki, Azərbaycan beynəlxalq kontekstdə xarici siyasət uğurları, xüsusilə Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən sonra yeni bir geosiyasi mövqe formalaşdırıb.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının milli maraqlarına əsaslanan xarici siyasət kursundan ətraflı bəhs edib. O qeyd edib ki, müasir Azərbaycan dövlətçiliyinin təməlinin qoyulması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

A.Rəhimzadənin sözlərinə görə, Ümummilli Lider xalqın dəvəti ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin dinamik inkişafının əsas istiqamətlərini müəyyənləşdirdi: ”O, ölkəni parçalanmaq və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Ölkənin iqtisadi qüdrəti artdı, siyasi mövqeyi möhkəmləndi. Azərbaycan beynəlxalq aləmdə müstəqil dövlət kimi varlığını təsdiqlədi, müstəqil siyasəti ilə yerini və rolunu möhkəmləndirdi. Beynəlxalq təşkilatlar səviyyəsində əlaqələr yüksələn xətt üzrə inkişaf etdi. 1994-cü il sentyabrın 20-də ”Əsrin müqaviləsi”nin imzalanması ilə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. 1995-ci ildə ümumxalq səsverməsi ilə yeni Konstitusiyanın qəbul edilməsi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində dönüş mərhələsi oldu. Bu gün Azərbaycan Konstitusiyanın tələblərinə və suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.





YAP Veteranlar Şurasının üzvü Arif Qaraşov Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətlərindən, məqsədyönlü siyasətinin əhəmiyyətindən danışıb. O qeyd edib ki, Azərbaycanın müstəqillik illərində həyata keçirdiyi xarici siyasət ölkəmizin dayanıqlı inkişafının və regional sabitliyin təminatçısıdır. Bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur: ”Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi dövr həm də milli oyanışın, tərəqqinin və müstəqil dövlət quruculuğunun əsas mərhələsi kimi yadda qalıb. Məhz Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir, həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi tanınır”.

YAP Təftiş Komissiyasının üzvü, Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qeyd edib ki, 1991-ci il oktyabrın 18-də ”Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı”nın qəbul olunması ilə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu.

Səməd Seyidov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimizin təhlükə altına düşməsinin qarşısı alındı. Heydər Əliyevin xarici siyasətinin müdrik əsasları ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsinə və gələcək nəsillər üçün sülh, təhlükəsizlik və tərəqqi mühitinin yaradılmasına zəmin yaratdı: ”Prezident İlham Əliyevin rəhbərliyi ilə uzun illər həm iqtisadi, siyasi, hərbi, həm də diplomatik sahədə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, Azərbaycan Vətən müharibəsində inamlı Qələbə qazandı, lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi tam bərpa olundu”.

Tədbir interaktiv formada davam edib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.



**Elçin Bayramlı**

# Dəyərlərimizi dəyərdən salanlar

Psixologiya elmi tibbi sahədir, amma bu gün ortalıq minlərlə elmsiz psixoloqla dolub. Təsəvvür edin ki, mən sosial şəbəkələrdə dost təkliflərinə baxıram, hər 10 nəfərdən 7-i psixoloqdur. Belə çıxır ki, istənilən şəxs müvafiq təhsili oldu-olmadı, özünü psixoloq kimi təqdim edib pul qazanmağa çalışır. Çünki indi psixoloq olmaq daha asan başa gəlir və xüsusi bir həkimlik təhsili lazım deyil. Ümumi internetdən əzbərlənmiş sözlər və sistemlərdir. Bunu belə edin, onu elə edin. Cəmiyyətimizə ən böyük zərbəni elə bu ”psixoloq”lar vurdu.

Gənclərin və yeniyetmələrin tərbiyəsinin pozulmasının, ailə institutumuzun dağılmasının əsas səbəbkarlarından biri də onlardır. Bunlar gecə-gündüz dayanmadan həm uşaqlarla, həm də böyüklərlə təbliğat apardılar, Qərb dəyərlərini gətirib bizim ölkəyə sırıdılar. Bəziləri məqsədli şəkildə bütün mənəvi dəyərlərimizi məhv eləməyə çalışırlar. Guya yeni psixoloji metodlar müasirlik və çərçivəsiz azadlıqdan ibarətdir. Beləliklə ailə institutumuzu dağıtdılar. Boşanmaların səviyyəsi 50 faizə çatıb.

Bu cür psixoloqlara nəinki uşaq tapşırmaq, yanlarına getmək belə düzgün deyil. Maraqlıdır ki, bu psixoloqların çox böyük əksəriyyəti gənc qızlardır. Yaşlı qadın və kişi psixoloqlar çox azdır. Yəni, bəzi avara qızlar bir ara onlar özlərini model adıyla təqdim edirdilər, indi də psixoloq adı ilə ortalığa düşüblər, çünki bu işdə yaxşı pul var. Necə deyərlər, həm ziyarət, həm ticarət. Əlbəttə, hamısı belə deyil, içində normal, ağıllı, əxlaqlı, təhsilli psixoloqlar var. Amma bir çoxu belədir. Bunları cəmiyyət boykot etməlidir. Birincisi, bunlara bu imkanlar necə verilir? Hərə gedib yalançı təhsil müessisəsindən sertifikat alır gəlir camaatın başında dələklik edir.

Biz görürük ki, psixoloqlar çoxalandan insanların psixologiyası necə dəyişib. Artıq bütün yaxşı şeylər pis sayılır, pis şeylər yaxşı. Hər şey tərsinə olub. Ona görə də, hamını belə psixoloqlardan uzaq durmağa çağırıram. Ümumiyyətlə, normal insan niyə psixoloqa gedməlidir. İnsan psixiatra gedə bilər. Psixoloq nə işlə məşğuldur, mənə hələ də çatmır. Problem onlarda deyil, onlar pul qazanırlar. Əsas problem insanlardadır. Belələrinin yanına getməsinlər. 100 manat pul verib gedir psixoloqun yanına, o da ümumi sözlərdən danışıb pulu alır qoyur cibinə. Deməli günah bizdədir.

Son vaxtlar cəmiyyətimizdə zorlamalar, fahişəlik, qadın alveri, boşanmalar, həyat yoldaşına xəyanət halları sürətlə artır. Mənəvi-əxlaqı deqradasiya pik həddinə gedir. Maddi dəyərlər mənəvi dəyərlərin önünə keçib. Qlobal mərkəzlərdən idarə olunan qruplar cəmiyyətimizdə əxlaqsızlığı normaya çevirmək, mənəvi dəyərləri tamam məhv etmək üçün var gücü ilə çalışır. Bu işlə təkcə saxta psixoloqlar deyil, çox sayda digər peşə sahibləri də məşğul olur- yazıçılar, jurnalistlər, sosioloqlar, müğənnilər, telemenecerlər və s.

Əvvəllər milli-mənəvi dəyərlərimiz həyatımızın əsas sütunu idi. El arasında ”yazılmamış qanunlar” adlandırılan ictimai davranış kodeksləri var idi və buna əməl olunurdu. 21-ci əsrə keçid sanki başqa bir dünyanı gətirdi. Pul və vəzifə uğrunda amansızcasına mübarizə mənəvi dəyərləri tədricən arxa plana keçirdi. Təhsilə, elmə, mədəniyyətə marağı əyləncənin əvəz etməsi, ağsaqqal-qarasaqqal münasibətlərinin çərçivədən çıxması, özəl TV-lərdən şou, serial və kriminal verilişlərlə kütləvi əxlaqsızlaşdırma, psixotron terror, davamlı reklam təcavüzü ilə zövqlərin, xüsusiyyətlərin, davranışların, dəbin hansısa şübhəli xarici mərkəzlərdən formalaşdırılması siyahı təəssüf ki, xeyli uzundur.

Bəli, bu gün, bəzi qlobal mərkəzlər tərəfindən cəmiyyətimizə yad dəyərlər oturdulur, hər şey tədricən dəyişdirilir. Bunun nəticəsində, indi müsbət şeylər mənfi sayılır, mənfi şeylər müsbət. Mənfilər çoxaldıqca müsbətlər azalır. Azlıq çoxluğa tabe olur.

İndiki qloballaşma dövründə milli-mənəvi dəyərlərimizi daha çox qorumalıyıq, çünki indiyədək heç vaxt olmadığı qədər güclü təzyiq və terror altındadır. Elmətəhsilə daha çox fikir verib irəli getməliyik. Sağlam düşüncəli, savadlı uşaqlar yetişdirib tərbiyə etməli, xalqımızı, ölkəmizi dünyanın inkişaf etmiş ölkəsinə çevirəcək insanları qorumalı, küçə müğənnilərini və yarıçılpaq modelləri dinləmək əvəzinə alimləri, ziyalıları dinləməliyik. Yalnız bu yolla bir millət kimi yaşaya və inkişaf edə bilərik.

# Bişkekdən Qəbələyə

*Türk Dövlətlərinin nailiyyətləri və gələcəyə baxışları*

Oktyabrın 6-7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) "Regional Sülh və Təhlükəsizlik" mövzusunda 12-ci Zirvə Toplantısı keçirilib. Azərbaycanın ev sahibi ölkə seçilməsi onun təşkilat və bütün türk dünyası üçün strateji əhəmiyyətini bir daha vurğulayır. Bu il Azərbaycan həm də Qırğızıstandan sədrliyi öz üzərinə götürərək, əməkdaşlığı gücləndirmək və təşkilat daxilində iddialı təşəbbüsləri həyata keçirmək üçün yeni imkanlar açır. Sammitin dövlət başçısı səviyyəsində keçirilməsi onu xüsusi əhəmiyyət kəsb edən tədbirə çevirir. İştirakın miqyası göstərir ki, Qəbələ görüşü təkcə TDT-yə üzv ölkələrin deyil, həm də regionun sabitliyi və rifahında maraqlı olan beynəlxalq tərəfdaşların diqqətini cəlb edir.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə qurumun unikallığını qeyd edib. Dövlət başçısının sözlərinə görə, TDT ölkələrini təkcə ortaq dil, tarix, mədəni köklər deyil, həm də birgə iqtisadi və sosial inkişaf istəyi birləşdirir: "Digər beynəlxalq təşkilatlara nəzər salsaq, onların heç də hamısını ümumi etnik komponent birləşdirmir. Bəli, biz müxtəlif xalqlarıq, amma hamımızın ortaq kökləri var ki, bu da türklərdən qaynaqlanır, həm də hər birimiz üçün daha mühüm etnik qrupa malik olan əhalinin sayının artması faktorudur. Bu, iqtisadi inkişafla dəstəklənəndə bir üstünlükdür", - Prezident İlham Əliyev "Al Arabiya" telekanalına müsahibəsində vurğulayıb.

TDT yarandığı gündən Azərbaycan türklərin inteqrasiyası ideyalarını fəal şəkildə təbliğ edən əsas iştirakçı olaraq qalır. Ölkənin dövlətlərin iqtisadi yaxınlaşmasına verdiyi töhfəni qiymətləndirmək çətindir: təkcə 2024-cü ildə TDT tərəfdaşları ilə ticarət dövriyyəsi demək olar ki, 6,9 milyard dollara çatıb ki, bu da ölkənin ümumi xarici ticarət dövriyyəsinin 14,5%-ni təşkil edir. Birgə iqtisadi institutların yaradılmasına xüsusi diqqət yetirilir. Bunun bariz nümunəsi 2024-cü ildə yaradılan və 5 üzv ölkənin hər birinin 100 milyon dollar töhfə verdiyi Türk İnvestisiya Fondudur. Artıq nizamnamə kapitalının 600 milyon dollara çatdırılması barədə qərar qəbul edilib. Fond infrastruktur, enerji, dayanıqlı kənd təsərrüfatı və Qarabağın bərpası layihələrini maliyyələşdirəcək.





Azərbaycan bu torpaqları təkcə mənzil tikintisi və sosial infrastrukturun tikintisi ilə deyil, həm də regional layihələrin: regionun bütün ölkələrinə fayda verəcək nəqliyyat və enerji dəhlizlərinin həyata keçirilməsi yolu ilə bərpa edir. Strateji layihələrdən biri Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edən və regional əlaqələri gücləndirən Trampın Beynəlxalq Sülh və Rifah Marşrutudur (TRIPP). Bu cür təşəbbüslərin həyata keçirilməsi son illər birləşdirilən ərazi icmalarının strateji gündəliyini müəyyən edən və əsas infrastruktur layihələrini irəli sürən Prezident İlham Əliyevin qətiyyəti və rəhbərliyi sayəsində mümkün olub.

Azərbaycanın tranzit qovşağı kimi rolu heç də az əhəmiyyət kəsb etmir. Qazaxıstandan uran, Çindən konteyner qatarları, Orta Asiyadan strateji yüklər ölkə ərazisindən keçir. Təkcə 2024-cü ildə Azərbaycan ərazisindən 11 milyon tondan çox yük daşınıb. Çini Xəzər dənizi və Cənubi Qafqaz vasitəsilə Avropa ilə birləşdirən Orta Dəhlizin inkişafı mühüm əhəmiyyət kəsb edir. Limanlara, dəmir yollarına, gəmiqayırma və hava limanlarına qoyulan sərmayələr artıq nəzərəçarpacaq nəticələr verir: Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyəti 1 milyon tondan 5 milyon tona qədər artıb, Ələt limanı ötürmə qabiliyyətini 15 milyon tondan 25 milyon tona yüksəldib, Bakı Gəmiqayırma Zavodunda yeni gəmilər tikilir, Xəzər dənizində beynəlxalq hava limanı açılır, donanma genişləndirilir.

Azərbaycan bərpa olunan enerji ixracını da fəal şəkildə inkişaf etdirir. 2024-cü ilin noyabrında Bakıda COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan yaşıl enerjinin istehsalı və ötürülməsinə dair strateji tərəfdaşlıq sazişi imzalayıblar. Bu layihə ölkələrin enerji sistemlərini birləşdirir və Aİ-nin ənənəvi mənbələrdən asılılığını azaltmaqla Avropaya təmiz enerji ixracı üçün imkanlar açır. İqlim dəyişikliyi, enerji təhlükəsizliyi və beynəlxalq terrorizm kimi qlobal çağırışlar fonunda Azərbaycanın rəhbərliyi ilə TDT-nin gücləndirilməsi regionda sabitliyin təmin edilməsi istiqamətində əsas addıma çevrilir.

Təşkilatın baş katibi Kubanıçbek Omurəliyev qeyd edib ki, Azərbaycanın sədrliyi üzv ölkələr arasında əməkdaşlığı gücləndirəcək və TDT-nin qarşılıqlı fəaliyyət üçün daha da səmərəli platformaya çevrilməsinə imkan verəcək: "Əminik ki, Azərbaycan qarşıdakı dövrdə də bu şərəfli işi davam etdirəcək və əməkdaşlığımızı daha da gücləndirəcək", - Omurəliyev vurğulayıb.

Prezident İlham Əliyev təşkilatın daha geniş missiyasını açıqlayıb: "Bizim baxışımız TDT-ni beynəlxalq miqyasda qlobal oyunçuya çevirməkdən ibarətdir ki, bu, təkcə daxili problemlərimizi həll etməklə kifayətlənməyəcək, həm də beynəlxalq miqyasda sabitləşdirici, müsbət rol oynayacaq. Eyni zamanda, o, qonşuları üçün imkanlar yaradacaq, belə bir geniş ərazi daxilində heç kimə təhdid yaratmayan, lakin heç bir ziddiyyət yaratmayan güclü birlik qurmaq mümkün olduğunu nümayiş etdirəcək".



Ona görə də Qəbələdə keçiriləcək sammit TDT üçün mühüm mərhələ olacaq. Bu, regional təhlükəsizlik, təcrübə mübadiləsi və infrastruktur sahəsində əməkdaşlığın dərinləşdirilməsinə imkan verəcək. Azərbaycan təşkilatın yaradılmasının fəal iştirakçısı və təşəbbüskarı kimi türk dünyasında sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynamaqda davam edir. Bu nailiyyətlərə görə Prezident İlham Əliyev xüsusi tərifə layiqdir. Onun qətiyyəti və gələcəyə hesablanmış strategiyası sayəsində Azərbaycan birləşən ərazi icmaları üçün inkişaf prioritetlərini müəyyən edir, irimiqyaslı infrastruktur layihələrini irəli sürür, regional inteqrasiyanı gücləndirir və təşkilatı beynəlxalq arenada nüfuzlu oyunçuya çevirir. Dövlət başçısının rəhbərliyi iddialı planların real layihələrə çevrilməsinə imkan verir, türk dünyasında sülh, təhlükəsizlik və iqtisadi tərəqqi üçün möhkəm zəmin yaradır.

## Qəbələ türk diplomatiyasının yeni mərkəzidir

Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Toplantısıın mərkəzi mövzusu müasir Avrasiya regionunun çağırışlarını əks etdirən aktual gündəm olan "Regional Sülh və Təhlükəsizlik"dir. 2009-cu il Naxçıvan Müqaviləsi əsasında yaradılmış Türk Dövlətləri Təşkilatı son 16 ildə inkişaf edərək nüfuzlu beynəlxalq platformaya çevrilib. Buraya Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan, həmçinin müşahidəçi və tərəfdaş ölkələr daxildir.

Sammitin gündəliyi bir çox məsələləri əhatə edib. Əsas təhlükəsizlik mövzusundan əlavə, liderlər nəqliyyat dəhlizlərinin inkişafı, enerji əməkdaşlığı, rəqəmsal iqtisadiyyat və müdafiə-texniki əməkdaşlığı müzakirə ediblər. Avropa ilə Asiyanı birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (Orta Dəhliz) xüsusi diqqət yetirilib. Bişkekdə keçirilən əvvəlki sammitdə rəqəmsal iqtisadiyyat, mülki müdafiə mexanizminin yaradılması, mərkəzi bankların koordinasiyası, hətta "Türk Böyük Dil Modeli"nin hazırlanması ilə bağlı sazişlər imzalanıb.

Ardı Səh. 7

# Bişkekdən Qəbələyə

## *Türk Dövlətlərinin nailiyyətləri və gələcəyə baxışları*

Əvvəli Səh. 6

Azərbaycan Prezidenti İlham Əliyev TDT-nin ölkənin əsas beynəlxalq təşkilatı olduğunu vurğulayaraq türk dünyasını "bizim ailəmiz" adlandırıb. Azərbaycan lideri təşkilatı qlobal arenada mühüm aktora çevirmək niyyətində olduğunu bildirib.

Sammitin keçiriləcəyi məkan kimi Qəbələnin seçilməsi simvolik xarakter daşıyır. Beynəlxalq musiqi festivalı və MDB-nin mədəniyyət və gənclər paytaxtı statusu ilə tanınan şəhər Avrasiya regionunun liderlərinin görüş yerinə çevrilir. Bu, regionun beynəlxalq profilinin şaxələndirilməsini və Qəbələnin mühüm diplomatik mərkəzə çevrildiyini vurğulayır. İki gün davam edən sammit yekun bəyannamənin qəbulu və iştirakçı ölkələr arasında inteqrasiyanın dərinləşdirilməsinə yönəlmiş bir sıra sazişlərin imzalanması ilə yekunlaşıb. Türk dünyasının strateji əhəmiyyətini - enerji resursları, nəqliyyat dəhlizləri, hərbi potensialı, ortaq mədəni və sivilizasiya təməlini nəzərə alsaq, Qəbələdə qəbul edilmiş qərarlar bütün regionun gələcək illərdə inkişaf istiqamətlərini müəyyən edə bilər.






### Bişkek Sammitindən sonra...

Türk Dövlətləri Təşkilatı (TDT) tarixi Naxçıvan Sazişinin 16-cı ildönümünü və Türk Dövlətlərinin Əməkdaşlıq Gününü qeyd edir. Bu gün təkcə institutsional nailiyyətlərimizi deyil, həm də türk xalqlarının davamlı birliyini, həmrəyliyini və qardaşlığını qeyd edirik. Son 16 il ərzində TDT hərtərəfli əməkdaşlıq platformasına çevrilib. Əvvəlcə bir neçə prioritet sahə üzrə əməkdaşlığa diqqət yetirən TDT indi siyasət və ticarətdən nəqliyyat və enerjiyə, rəqəmsallaşmadan yaşıl iqtisadiyyata, səhiyyə və təhsildən gənclərə və kosmosa qədər 40 fərqli sahəni əhatə edir. Bu tərəqqi dövlət başçılarının qətiyyətli və səmərəli baxışı, xarici işlər nazirlərinin, o cümlədən üzv və müşahidəçi dövlətlərin bütün nazirliklərinin, qurumlarının və təşkilatlarının fəal səyləri olmadan mümkün olmazdı. Bu, bizim tarixi və mədəni əlaqələri həmrəylik və tərəqqi üçün etibarlı alətlərə çevirmək üçün ortaq iradəmizi nümayiş etdirir.




Bu mühüm günü qeyd edərkən, Türk dünyasında inteqrasiyanı daha da gücləndirəcək, əməkdaşlığı daha da dərinləşdirəcək, sülh və firavanlığı daha da irəli aparacaq, gələcək mərhələyə doğru irəliləyəcək Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Azərbaycanın Qəbələ şəhərində keçirilən 12-ci Zirvə Toplantısı növbəti uşurlarımıza vəsilə olacaq. Bişkek Sammitindən sonrakı ildə 120-dən çox yüksək səviyyəli görüş və tədbir keçirilib, əməkdaşlığın əhatə dairəsi genişləndirilib, yeni dialoq mexanizmləri yaradılıb. Bunların arasında 2025-ci ilin sentyabrında Bişkekdə keçirilən Türk Dövlətləri Hökumət Başçılarının Görüşü ticarət, investisiya, enerji, kənd təsərrüfatı və rəqəmsallaşmaya yönəldilib və təşkilatımızın tarixində bir ilk olub. Qeyd etmək vacibdir ki, yekunlaşan Birgə Bəyannamə ilə yekunlaşan bu görüş TDT-nin artan fəaliyyəti və dövlət başçılarının sammitlərdə qəbul etdikləri qərarların tez və səmərəli həyata keçirilməsi zərurətinə cavab olaraq keçirilib. Bu görüş TDT-nin iqtisadi infrastrukturunu gücləndirəcək yeni ənənənin başlanğıcını göstərir.

Ənənəvi görüşlər öz əhəmiyyətini saxlamaqda davam edir və yeni perspektiv və ideyalarla zənginləşir. 2025-ci ilin iyununda MDB ölkələrinin kənd təsərrüfatı nazirləri Çolpon-Atada görüşüb və Kənd Təsərrüfatı Kooperasiyası sahəsində Birgə Bəyannamə və Strateji Yol Xəritəsini qəbul ediblər. Çolpon-Ata 2025-2026-cı illər üçün Türk Dünyasının Kənd Təsərrüfatı Paytaxtı elan edilib. Bundan əlavə, Türkiyə Sahibkarlar Kənd Təsərrüfatı Forumu yeni layihələri müzakirə etmək üçün rəsmiləri, iş adamlarını və investorları bir araya gətirib.

Cəlal-Abad Türk Dünyasının Turizm Paytaxtı elan edilib və sentyabr ayında böyük Beynəlxalq Turizm Forumu keçirilib. Özbəkistanda keçirilən ilk Türkiyə Xizək Kuboku və Azərbaycanın Şahdağda keçirilən ilk Türkiyə Kayak Kurortları Zirvəsi ilə qış turizmi də irəliləyib. Bu arada, üzv dövlətlər arasında səyahəti asanlaşdırmaq və daha əlçatan etmək məqsədi daşıyan "Ortaq Kayak Bileti", "Ortaq Muzey Bileti" və "Türk Kimliyi" kimi təşəbbüslər davam edir. Bu dövrdə dövlət idarəçiliyi və təhlükəsizlik məsələləri də fəal şəkildə həll edilib. İnsan Resurslarının İnkişafı İnstitutlarının rəhbərləri İssık Kulda, Müsəlman Dini Şuralarının rəhbərləri və Təhlükəsizlik Şurasının katibləri isə Bişkekdə görüşüblər.




Çolpon-Atada 500-dən çox iştirakçını bir araya gətirən 3-cü Türkiyə Universitet Oyunları, Almatıda Türk Dünyası Gənclər Paytaxtının açılışı, Daşkənddə III Diaspor Gənclər Forumunun təşkili, İdman Könüllüləri Forumu, Qəbələdə Türkiyə Könüllüləri Düşərgəsi, Qırmızı Könüllülər Düşərgəsi, İstanbulda keçirilən Türkiyə Düşərgəsinin daha da gücləndirilməsi də daxil olmaqla, mühüm humanitar təşəbbüslər vasitəsilə gənclər və idman sahəsində əməkdaşlıq daha da gücləndirilib. Təhsil inteqrasiya səylərimizin mərkəzində qalır. Nazirliklər və universitetlər Türk Universitetlər Birliyi (TÜRKÜNİB) və Orxon Mübadilə Proqramı üçün daimi katiblik və proqram fondunun yaradılması istiqamətində addımlar atır. Bundan əlavə, Macarıstanın TDT üçün Elmi Tədqiqat, İnkişaf və İnnovasiya Fonduna hər il 1 milyon avro ayırmaq öhdəliyi tədqiqat, innovasiya və bilik mübadiləsini dəstəkləmək üçün təsdiq edilib.

Bu kontekstdə mühüm mərhələ 21 may 2025-ci ildə Macarıstanın paytaxtı Budapeştdə keçirilən TDT-nin Qeyri-rəsmi Sammiti oldu. İlk dəfə olaraq TDT sammiti Avropada və müşahidəçi dövlətin ərazisində keçirildi. Orada qəbul edilən Budapeşt Bəyannaməsi iqtisadi inteqrasiya, rəqəmsal inkişaf və təhlükəsizlik üçün yeni yol xəritəsini müəyyən etdi. Bu dövrdə TDT beynəlxalq miqyasda da daha fəal tərəfdaşa çevrildi. Dövlət başçılarımızın göstərişlərinə əsasən Cenevrə, Vyana, Brüssel, Paris, Nyu-Yorkda beynəlxalq təşkilatlarla dialoqumuz genişləndi.

### Azərbaycanın həlledici rolu

2009-cu il Naxçıvan Sazişinin imzalandığı yer olan Azərbaycan həmişə TDT ailəsinin mərkəzində olub. Onun suverenliyinin və ərazi bütövlüyünün bərpası regionumuz üçün yeni dövr açıb, sülhü möhkəmləndirib, daha geniş əməkdaşlıq imkanları yaradıb. Azərbaycanın Cənub Qaz Dəhlizindən tutmuş Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhlizə qədər böyük nəqliyyat və enerji layihələrindəki rolu hamıya məlumdur. Bu təşəbbüslər ticarət yollarını qısaldır, qitələri birləşdirir və qlobal əlaqəyə töhfə verir. Enerji sahəsində əməkdaşlıq başqa bir təməl daşıdır. Azərbaycanın iddialı dəniz külək layihələri və Yaşıl Dəhliz tərəfdaşlığı nümayiş etdirir ki, ölkələrimiz dayanıqlı inkişafa yol göstərə bilər.




İqtisadi baxımdan rəqəmlər öz sözünü deyir. Ümumi daxili məhsulun (ÜDM) 2,1 trilyon dolları keçən türk dövlətləri qlobal iqtisadi gücdür. Türk dövlətləri arasında bir vaxtlar cüzi 3 faiz olan ticarət artıq 7 faizə yüksəlib və böyüməkdə davam edir. İlk dəfə Azərbaycan Prezidenti İlham Əliyevin təklif etdiyi layihə olan Türkiyə Ticarət və Sənaye Palataları Birliyi və Türkiyə İnvestisiya Fondu kimi mexanizmlər milyonlarla sahibkarı bir araya gətirir və bölgəmizdə kiçik və orta biznesin rifahını təmin edir.




### Regional sülh və təhlükəsizlik

TDT liderləri 2025-ci il oktyabrın 7-də Azərbaycanın Qəbələ şəhərində "Regional Sülh və Təhlükəsizlik" mövzusu altında Dövlət Başçılarının 12-ci Zirvə Görüşünə bir araya gəliblər. Bu sammit Azərbaycanın qədim şəhərində keçmişlə bu günün yaxınlaşmasını və Azərbaycanın sədrliyi ilə yeni dövrün başlanğıcını simvolizə edən tarixi mərhələ olub. Hədəflərimiz iddialıdır və təməllərimiz son dərəcə möhkəmdir. Azərbaycanın strateji mövqeyi, siyasi nüfuzu və iqtisadi potensialı TDT-ni beynəlxalq arenada yeni artım və görünürlük səviyyəsinə yüksəldəcək. Cənubi Qafqazda sülhün bərqərar olmasına xidmət edən Vaşinqton razılaşmalarından sonra bu sammit bütün regionumuz üçün böyük əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin dediyi kimi, "Türk Dövlətləri Təşkilatı bizim fundamental beynəlxalq təşkilatımızdır. O, bizim ailəmizdir. Türk dünyası bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur".

**V.VƏLİYEV**

# 44 günlük müharibə: Ermənistanın terrorçuluq əməlləri

## Prezident İlham Əliyev: "Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz"

2020-ci ilin oktyabr ayında cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən bir neçə dəfə ayrı-ayrı zamanlarda bombalanması erməni vəhşiliyinin bir nümunəsi olaraq dünya ictimaiyyətinin gözü qarşısında baş verdi. Gəncəyə ilk hücum 4 oktyabrda baş verdi və 1 mülki şəxs Əliyev Tunar Qoşqar oğlu şəhid oldu, 30-dan çox mülki şəxs yaralandı. Bu raket hücumu müharibənin getdiyi ərazidən kənarda edilən ilk ciddi hücum idi. Qeyd edək ki, birinci dəfə OTR-21 TOÇKA ballistik raketindən Gəncə şəhəri vuruldu. Daha sonra Gəncə bir daha raket hücumuna 5 oktyabrda məruz qaldı. Hücum nəticəsində 3 mülki şəxs yaralandı. Üçüncü raket hücumu oktyabrın 8-də oldu. Bu gecə saatlarında Gəncəyə endirilən ilk raket zərbəsi idi. Nəticədə ölən və yaralananlar olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi, həlak olan və yaralanan olmadı. Düşmənin silahlı qüvvələrinin növbəti dəfə 11 oktyabr tarixində gecə saat 02 radələrində Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak oldu, 28 nəfər yaralandı. Çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəydi. Ermənistan silahlı qüvvələri "Toçka-U" raket sistemindən istifadə edərək, Gəncədə insanların sıx yaşadığı məntəqəni atəşə tutdu. "Müharibə dövründə kimin kim olduğunu, kimin vicdanlı döyüş





apardığını və kimin yatmış şəhərlərə alçaqcasına hücum etdiyini hamı gördü. Özü də ən maraqlısı budur ki, gecə vaxtı Gəncənin yaşayış məhəlləsinə, yatan insanlara və uşaqlara operativ-taktiki raket zərbələri endiriləndən sonra Ermənistan rəhbərliyi bəyan etdi ki, onların bu məsələyə heç bir aidiyyəti yoxdur. Bilirsiniz, bu, ifrat həyasızlıqdır. Bəs kim edib? Biz özümüz vurmuşuq?" Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsahibələrinin birində bildirmişdir. Gəncə terroru bir daha erməni xislətini ortaya qoymuş oldu. Azərbaycan Ordusunun əks-hücumu nəticəsində başını itirən Ermənistan mülki obyektləri hədəfə almaqla acizliyini göstərdi. Suqovuşan və işğaldan azad edilən digər ərazilərimizin, xüsusilə Arazboyu, tarixi Xudafərin körpüsünün yerləşdiyi strateji əhəmiyyətli Cəbrayıl şəhərinin azad edilməsi onlarda vahimə hissini daha da artımış olurdu. Ermənistanın mülki şəxslərə raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da oldu. Onlar döyüş meydanında məğlubiyyətin acığını çıxmağa çalışırdılar.

### UŞAQ, QOCA, QADIN TERRORA MƏRUZ QALDI

Ermənilər tarix boyu belə təcavüzkarlıq etmiş, terror aktları törətmişdilər. Ötən əsrin ən böyük faciələrindən biri kimi tariximizdə iz salan Xocalı soyqırımı XX yüzillikdə insanlığa qarşı törədilən ən amansız faciələrdən sayılır. 1992-ci il fevralın 25-dən 26 - na keçən gecə - Xocalı soyqırımı xalqımızın növbəti faciəsinin yaşadığı bir tarixdir. Yeddi min əhalisi olan Xocalı erməni terrorçu qrupları keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasının tərkibində olan 366-cı alıyının köməyi ilə müxtəlif növ silahlardan atəşə tutularaq yerlə-yeksan edilmişdir. Qəddarcasına həyata keçirilmiş terror əməliyyatı nəticəsində 613 nəfər şəhid olmuş, onlardan 56-sı xüsusi qəddarlıqla qətlə yetirilmiş, 487 nəfər ağır yaralanmış 1430 nəfər əsir götürülərək, amansız işgəncələrə məruz qalmış, onların 135 nəfərinin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri isə qocalar olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 27 ailənin hərəsindən yalnız bir nəfər sağ qalmışdır. 44 günlük Vətən müharibəsində ermənilərin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması onların çirkin niyyətlərini bir daha göz önündə canlandırdı. Uşaq, qoca terrora məruz qaldı. Eləcə də, Bərdədə də yaşanılan hadisələr də ermənilərin faşist əməllərini təsdiqlədi. Beləliklə, dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlər törətdilər. Bütün bunların planı əvvəldən hazırlanmışdır. "Hərbi cinayətlər üzrə beynəlxalq tribunal kifayət qədər siyasiləşdirilmiş, ikili standartlara, fərqli yanaşmalara əsaslanan təsisatdır və son illərin hadisələri bunu dəfələrlə sübut edib", - bildirən Cənab Prezident qeyd edib ki, Ermənistanın Qərbdə mövcud olan bu cür lobbist potensialı, Ermənistanın bir sıra Qərb ölkələri ilə xüsusi münasibətləri nəzərə alınmaqla, tam səmimi deyirəm, bizim buna nail olacağımıza ümid etmək çətindir: "Hətta buna nail olsaq belə, onun Azərbaycana qara yaxmaq üçün növbəti vasitəyə çevrilməyəcəyinə, ədalətli məhkəmə olacağına zəmanət yoxdur. Lakin bununla bərabər, əlbəttə, müharibə dövründə törədilmiş hərbi cinayətlərlə bağlı bütün faktlar sənədləşdirilib və tə-



bii ki, biz hərbi cinayətkarların məsuliyyətə cəlb edilməsi üçün ciddi hüquqi tədbirlər görəcəyik".

### "DÖYÜŞ MEYDANINDA DA, BEYNƏLXALQ MÜSTƏVİDƏ DƏ, SİYASİ MEYDANLARDA DA BİZ QALİB GƏLİRİK"

İşğalçı ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələri və mülki əhalini hədəfə almaqla 2020-ci ilin oktyabrın 9-da saat 14 radələrindən başlayaraq, Ağdam rayonunun Quzanlı qəsəbəsini müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutması nətcəsində Quzanlı qəsəbə sakinləri 1979-cu il təvəllüdlü Hüseynov Əlizamin Cavid oğlu, 1978-ci il təvəllüdlü Zeynalov Elçin Əli oğlu, 1984-cü il təvəllüdlü Məmmədova Lalə Məhəmməd qızı və 1992-ci il təvəllüdlü Rzayev Elçin Hənifə oğlu qəsəbə ərazisinə mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldılar.

Bütün törədilən bu və ya digər əməllərə baxmayaraq, Azərbaycan haqq işində israrlı idi. "Bu gün bütün cəbhə boyu döyüşlər gedir. Bütün istiqamətlər üzrə Azərbaycan mövqelərini möhkəmləndirir və biz işğalçını, təcavüzkarı sülhə məcbur edirik. Bu əməliyyatın əsas məqsədi də odur. Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik. Onlar bizim gücümüzü gördülər. Bizim iradəmizi gördülər. Onlar gördülər ki, dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Kimə istəyirsən yalvarırsan yalvar, kimin ayağının altına yıxılırsan yıxıl, kimin dabanlarını yalayırsan yala, heç kim bizə təsir edə bilməz. Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq. Ərazi bütövlüyümüzü bərpa edəcəyik", - deyə Azərbaycan Prezidenti İlham Əliyev 9 oktyabr 2020-ci il tarixində xalqa müraciətində bildirmişdir.

### "MÜHARİBƏ BİR DAHA GÖSTƏRDİ KİM KİMDİR"

2020-ci ilin 8 noyabr tarixi - Şuşanın işğaldan azad edildiyi gün bütün Azərbaycan xalqı üçün Zəfər günü kimi yadda qaldı. Cənab Prezidentin bildirdiyi kimi, "Noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu".

Qalibiyyətimizin rəmzi olaraq 2020-ci il 10 dekabr tarixində keçirilən möhtəşəm Zəfər paradı müzəffər Azərbaycan Ordusunun gücünü və qürurunu bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi, yenilməz xalq olduğumuzu göstərdi. Dövlət başçısının bildirdiyi kimi, "Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir". "Dəmir yumruq" əməliyyatı XXI əsrin müharibəsi olaraq dünya tarixində yer aldı.

Dövlət başçısı çıxışlarının birində bildirib ki, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Cənab Prezidentin bildirdiyi kimi, "Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur".

Bu gün regionda yeni reallıqlar yaratmış Azərbaycan Qarabağda böyük abadlıq-quruculuq işləri həyata keçirir. Faşist ideologiyalı Ermənistan Qarabağdakı bütün infrastrukturu, tarixi, dini və mədəni abidələri, yaşayış binalarını və evlərini darmadağın edib. Bu gün Böyük Qayıdışın ilk ünvanı olan Ağalı kəndində həyat qaynayır. Füzulidə, Zəngilanda, Şuşada, Laçında irimiqyaslı layihələrin reallaşması nəticəsində əzəli sakinlər tarixi torpaqlarımızda yurd salırlar.

***Zümrüd BAYRAMOVA***

# Yasda əsas məqsəd nədir - dua, yoxsa nümayiş?





***Son illərdə yas mərasimlərinin keçirilmə forması xeyli dəyişib. Əvvəllər sadəlik, təvazökarlıq və mərhumun xatirəsinə hörmət üzərində qurulan bu mərasimlər indi bəzən tam fərqli mənzərə yaradır. Bəzi hallarda yas yerlərində dəbdəbəli süfrələr açılır, bahalı menyular təqdim olunur. Bəzi məkanlar isə yas təşkil edənlərə məcburi şəkildə müəyyən xidmət paketləri və menyular təklif edirlər. Bu isə cəmiyyətdə müxtəlif fikirlərin yaranmasına səbəb olur: görəsən, bu cür yanaşma bizim ənənələrimizə, yasın mahiyyətinə və dini baxımdan məqsədinə nə dərəcədə uyğundur? Maraqlıdır, insanlar bu halı necə qarşılayır? SİA bu mövzu ilə bağlı şəhər sakinləri arasında sorğu aparıb.***

**Şəhər sakini Zərqələn Cavadova:** "Yas mərasimi sadə şəkildə keçirilməlidir. Bizim tərəflərdə indi mərasimlər daha sadə olur, əvvəllər isə çox təmtəraqlı keçirilirdi. İndi süfrədə əsasən qoğal, xurma və halva olur, yemək olaraq isə plov verilir. Amma əvvəllər vəziyyət tamam fərqli idi - 3-4 cür yeməklər, meyvələr təqdim edilirdi. İndi yaxşı ki, bu adət bir qədər azalıb. Hazırda qaldığım Mehdabadda yas mərasimləri üçün xüsusi yerlər var. Molla



gəlir, dua oxuyur və gedir. Artıq mərasimlərdə ağlamaq da əvvəlki kimi deyil. Amma bəzi yerlərdə mollalar xarici maşınla gəlir, bir dua oxuyub 100 manat alıb gedirlər. Mən yasın sadə keçirilməsinin tərəfdarıyam. Çünki birinin imkanı var, o təmtəraqlı keçirir, digəri məcbur qalıb onu təkrarlayır ki, qınaq obyektinə çevrilməsin. Rəhmətə gedənin başdaşı, məkan və digər məsələlər onsuz da ailə üçün maddi yük yaradır".

**Şəhər sakini Teyfə Xudayarova:** "Yas mərasimi sadə olmalıdır. Kimin imkanı varsa, o daha təmtəraqlı keçirir, amma imkanı olmayanlar utanır ki, "digəri belə etdi, mən edə bil-



mirəm". Halbuki yasda əsas olan süfrənin bolluğu deyil. Bir çay, qoğal, limon, xurma, pendir kifayətdir. Yasda sadəlik həm mənəvi, həm də dini baxımdan daha uyğundur."

**Şəhər sakini Namizəd Əliyev:** "Yasda ümumiyyətlə yemək olmamalıdır. İnsanlar ya-



sa yemək üçün gəlməməlidir. Sadəcə çay, xurma və konfet kifayətdir. Bəzi ailələr maddi vəziyyətləri zəif olsa da, heyvan kəsirlər, bu isə əlavə xərcdir. Məncə, yas mərasimi sadə başsağlığı ilə kifayətlənməlidir, təmtəraqlı yeməklərə ehtiyac yoxdur."

**Şəhər sakini İlyas Abbasov:** "Bu, həqiqətən çətin və düşündürücü bir məsələdir. Əvvəllər insanlar yas mərasimlərində bir-birinə mənəvi və maddi dəstək olmaq üçün iştirak edirdilər. Amma indi bəzi yerlərdə elə bil



şənlik keçirilir - süfrələr, bəzək-düzək... İnsanlar unudurlar ki, yasın məqsədi mərhumun ailəsinə mənəvi dayaq olmaqdır. Təəssüf ki, indi yasda şəxsi söhbətlər, müzakirələr daha çox olur. Məncə, bu cür təmtərağın qarşısını almaq üçün müəyyən tədbirlər görülməlidir. Yas mərasimi bəzək-düzəklə yox, mənəvi dəstək və sadəliklə yadda qalmalıdır."

**Şəhər sakini Nisə Qafarova:** "Düzünü desəm, yas mərasimində şəxsən iştirak etməmişəm, amma gördüyüm qədərilə bu cür



tədbirlərin təntənəli şəkildə keçirilməsi düzgün deyil. İnsan dünyasını dəyişibsə, onun üçün təmtəraqlı süfrələr açmaq, bahalı məkanlarda mərasim keçirmək yersizdir. Həyatdaykən insanın yaxşı günlərini qeyd etmək daha doğrudur. Üstəlik, yas məkanlarının qiymətləri də çox bahadır, bu da maddi imkanı az olan ailələr üçün əlavə çətinlik yaradır".

**Şəhər sakini Şaiq Hüseynəliyev:** "Yas mərasiminin toy səviyyəsində keçirilməsinin əleyhinəyəm. Düşünürəm ki, süfrədə sadəcə



halva, salat, limonlu çay və şirniyyat olmalıdır. Biz yalnız uzaqdan gələnlər üçün ayrıca yemək hazırlayırıq, başqa heç nə."

**Şəhər sakini Təranə Abdullayeva:** "Bu, çox aktual bir məsələdir. İslam dünyasının əksər ölkələrində yas sadəcə dini mərasim formasında keçirilir - mərhum üçün dualar oxunur, halva paylanır və insanlar başsağlığı verib gedirlər. Amma Azərbaycanda vəziyyət fərqlidir: bəzən yas, demək olar ki, toy səviyyəsində olur. Ailə qınaq obyektinə çevrilməmək üçün borca düşür, xərcə girir. Halbuki bunun heç bir mənası yoxdur. Yas mərasimi təmtəraqla deyil, sadəlik və hörmətlə keçirilməlidir".

***Günel Fərzəliyeva***





# Ənənəvi poçtun transformasiyası: zaman tələb edir ki...

*9 oktyabr Ümumdünya Poçt Günüdür*

***Poçt xidməti və poçtalyon fiquru mənim xatirimdə həmişə Nazim əmini canlandırır, poçt barədə yazanda, danışanda uşaqlığımı onunla birgə xatırlayıram, elə də uzaq keçmişi yox, cəmi 30 il əvvəli. Nazim əminin özünəməxsus sürətli yerişi vardı, çiynindən asılmış brezent çantası, çantadan aşıb-daşan rəngarəng markalı məktublar, teleqramlar, qoltuğundakı qəzet-jurnal, ayaqla gəzdiyi onlarla küçə, girdiyi yüzlərlə ev - onu belə xatırlayıram. O hamının ailə üzvü idi, bir gün valideynlərimizə məktub ya teleqram, başqa gün bizim abunə olduğumuz maraqlı "Göyərçin" jurnalını, o biri gün sevimli "Tumurcuğ"umuzu gətirirdi.***

Məncə, poçtalyonlar o zamanın sosial şəbəkəsi idi. Onlar ünsiyyətin, sosiallaşmanın ayrılmaz hissəsi idi. Nazim əminin qonşu ölkələrdə dərc olunan jurnalları, almanaxları gətirməsini elə həsrətlə gözləyirdik ki... O bizim dünya ilə körpümüz idi. İndi təəccüblənirəm, amma o zaman bizim üçün adi idi, hansı evə hansı gün məktub gələcəyini, kimin hansı qəzetə, jurnala abunə olduğunu əzbər bilirdi. Məktubda ünvan səhv yazılsa belə doğru ünvana çatdırırdı, çünki adbaad, evbəev hamını tanıyırdı.

Poçtunu daşıdığı hamının dostu idi poçtalyon. Gözü yazını seçməyən qocaların məktub oxuyanı, yazı yazmağı bilməyənlərin mirzəsi idi onlar. Kiminin evində nahara də-












vət edilirdilər, kiminin evində isti sacın, təndirin çörəyinə, qaynar samovarın pürrəngi çayına qonaq olurdular. Qızmar yay günlərində küçədən keçəcək poçtolyon üçün soyuducuda daima sərin su, buz kimi qarpız saxladan babamı gülümsəyərək xatırlayıram bu yazını yazdıqca...

Ünsiyyət vasitələri insanın mövcud olduğu tarixdən bu günə qədər həm də sosial təkamül hesab edilir. Poçt göyərçinləri, günəşin doğması və batması vaxtına uyğun vədələşmək, teleqraf, teleqram, faks, teletayp, məktub kimi ünsiyyət vasitələri əslində sosiallaşmanın ilkin nümunəsidir. Rabitə texnologiyalarının inkişafı ilə bu sahədə yenilik durmadan artdı və günümüzdəki texnologiya əjdahası - internet yarandı.1990-cı illərin sonu internetin mülki vətəndaşların istifadəsinə verilməsindən sonra bu əsrarəngiz texnologiya möcüzəsi bütün insanların həyatında ən vacib element oldu. Beləcə, ənənəvi poçt sistemi transformasiyaya uğrayaraq online müstəviyə keçdi.

Düşünün, rəqəmsal sistemə keçməzdən əvvəl ünsiyyət qurmaq üçün müəyyən vaxta ehtiyacımız var idi, əvvəl ya məktubla, ya telefonla görüş təyin edirdik, vaxt-vədə yetişəndə görüşür, sosiallaşırdıq. Həyat normal axarında idi, tələsmirdik, qaçmırdıq, yorulmurduq. Məktub göndərdiyimiz adamdan 1 ay sonra məktub almağımız bizə normal görünürdü. Lakin indi bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsindəki tanışımızla ünsiyyət qura bilirik, mesajla, adi zənglə, görüntülü zənglə və s. Mesajımıza 1 dəqiqə gec cavab alanda səbirsizlənirik, hövsələmiz daralır. Başqa ölkədəki tanışımıza göndərdiyimiz məktubumuzun cavabı üçün 1 ay yol gözlədiyimiz vaxtlar bizə nağıl, yuxu təsiri bağışlayır. Haradan hara gəldik, elə deyil?

Texnologiya o qədər sürətlə inkişaf edir ki bəzən özümüz də onun sürətinə yetişə bilmirik. Elə bu sürət, bu transformasiya poçtalyonların ayağını kəsdi küçələrdən, evlərdən. Bir zamanların ən çox axtarılan adamları indi gözəgörünməz oldu. Zamanla poçt sektorunda işçi sayı da azaldı, elektron poçt və online xidmətlər bu sahədə ciddi durğunluq yaratdı. Ənənəvi məktub poçtları azaldığı üçün işçilərə tələbat da azaldı, poçtolyonların yerini yavaş-yavaş kuryerlər tutdu. Telefonumuz, kompyuterimiz poçtalyonumuz oldu bizim.

Zənnimcə, Azərbaycan poçtunun ən çətin və həm də ən şərəfli dövrü II Dünya müharibəsi illərinə təsadüf edir. Bu illərdə xüsusilə poçtalyonların fədakarlığını qeyd etməmək olmaz. Həmin dövrdə poçt işçilərinin üzərinə ikiqat məsuliyyət düşürdü, çünki poçt göndərişlərinin həcminin artması və əsgər məktublarının vaxtında ünvanlara çatdırılması, rabitənin qurulması bütün mənalarda məsuliyyət tələb edirdi. Hərbi poçt xidməti də böyük məsuliyyət tələb edən vəzifə idi, hərbi sirrin yayılmaması üçün cəbhəyə göndərilən məktublar, qurulan rabitə əlaqələri xüsusi kodlar və ünvanlar ilə işarələnirdi.

Müharibə dövründə poçtalyon işləmək həm də möhkəm iradə tələb edirdi. Bunu da hər adam bacarmırdı, cəbhədən gələn qara xəbərin ağırlığına dözməyərək işindən uzaqlaşan poçtalyonlar da olub. Üçbucaq əsgər məktublarını sevinclə daşıyan poçt işçiləri "qara kağız" gətirəndə sarsıntı keçirir, aylarla, illərlə əsgər məktubu daşıdığı ailəyə ölüm xəbəri verməyin əzabını yaşayırdılar. O dövrdə poçtalyonlar ən çox arzulanan qonaq idi, amma məktubların arası kəsiləndən sonra poçtalyon arzuedilməyən qonaq olurdu, "qəfil gələr, qara xəbər gətirər" qorxusu olurdu ailələrdə. O ailələrin dərdini onlarla birgə çəkən bir adam da vardı, yad idi, amma doğma adam idi - poçtalyon.

Qeyd etmək yerinə düşər ki, həmin illərdə poçtalyonların mənzil şəraitinin yaxşılaşdırılması da dövlətimizin prioritetlərindən biri olub.

***Ardı Səh. 11***

# Ənənəvi poçtun transformasiyası: zaman tələb edir ki...

*9 oktyabr Ümumdünya Poçt Günüdür*



Əvvəli Səh. 10

Rabitənin, poçt daşınmalarının gecikməməsi üçün poçtalyonlar poçt şöbələrinin yaxınlığında evlə təmin olunurdular, bu mənzillər adətən dövlət balansında olan çoxmənzilli binalardan ayrılırdı. Şəhərin mərkəzində evi olan poçtalyonlar kifayət qədər çox idi. Rayonlarda, kəndlərdə poçt şöbələri tikilərkən binanın yanında mütləq poçtalyon üçün mənzil də inşa edilirdi. Çətin bölgələrdə işləyən poçtalyonlar üçün maaşdan əlavə ödənişlər olurdu, onlar atla, motoskl, velosipedlə təmin olunurdular. İlboyu gərgin işləyən poçt işçilərinin məzuniyyətini sanatoriyada keçirməsi üçün putyovka-göndəriş verilirdi. Poçtalyonlar "Əməkdar rabitəçi", "Sosialist əməyi qəhrəmanı" fəxri adı, "Qırmızı əmək bayrağı ordeni", "Fəxri fərman" və s. mükafatlarla təltif edilirdi.



Zaman dayanmır. Zaman heç kimə, heç nəyə güzəşt eləmir, əksinə, sürətlə axır, axdıqca texnoloji yeniliklər baş verir, ənənəvi xidmətlərdə transformasiya



yaranır. İnternet və mobil rabitənin ixtirası, geniş yayılması da poçt xidmətindəki transformasiyanı labüd etdi. Elektron poçtlar məktubları əvəz etdi, messencerlər teleqramı, sosial şəbəkələr isə bir-birini tanımadan məktublaşan insanları. Tanımadığın bir ünvana məktub yazmaq, cavab gözləmək, beləcə uzaqlarda tanımadığın tanışlar qazanmaq 40-50 il əvvəl nə qədər əyləncəli idisə, internetin inkişafı ilə meydana çıxan virtual dostluqlar da bir o qədər maraqlı oldu.

Amma zamanın tələbinə uyğunlaşmağı bacaran poçt sistemi tarixə gömülmədi, itib-batmadı. Rəqəmsallaşma poçt xidmətini də virtual xidmətlər fenomeninə çevirdi. Poçt şöbələri yalnız məktub daşımadı, yalnız qəzet-jurnal mübadiləsi ilə məşğul olmadı, rəqəmsal bank, ödəniş və logistika mərkəzinə çevrildi. Azərbaycanın milli poçt operatoru Azərpoçt da dövrün tələblərinə ayaq uydurdu, zamanla ayaqlaşdı, ənənəvi poçt sistemində inqilab etdi desək, yanılmarıq. İndi Azərpoçt ənənəvi poçt xidmətləri ilə yanaşı, daha çağdaş yollar - rəqəmsal həllər də təqdim edir.

Müştərilər öz göndərişlərinin statusunu onlayn yolla izləyə bilirlər, SMS və e-mail vasitəsilə məlumatlandırma xidmətindən istifadə mümkündür, Azərpoçt-un saytından və mobil tətbiqindən onlayn ödəniş xidmətlərinin əlçatanlığı var.

Həmçinin rəqəmsal maliyyə xidmətləri sayəsində poçt kartı və onlayn bank xidmətlərindən yararlanmaq mümkündür, vətəndaşlar E-Pul sistemi vasitəsilə sürətli pul köçürmələri edə bilir, Azərpoçt e-commerce platforması vasitəsi ilə həm yerli, həm də xarici onlayn sifarişlərin çatdırılması həyata keçirilir, poçt şöbələrində vətəndaşlar elektron imza xidmətlərini əldə edə bilirlər. Bir sözlə, Azərpoçt artıq təkcə məktub və bağlama daşıyan qurum deyil, həm də rəqəmsal bankçılıq və e-xidmət platforması rolunu oynayan milli brenddir.

Poçtların zamanın tələbinə ayaq uydurması bir az da qlobal kuryer şirkətlərinin artması, bazarda boy göstərməsi və güclənməsi sayəsində oldu. UPS, DHL, FedEx, SF Express, TNT Express kimi fenomenlər bazarda gücləndikcə dövlət poçtları sözün yaxşı mənasında modernləşməyə və transformasiyaya məcbur qaldı. Beynəlxalq poçt, yükdaşıma və sürətli çatdırılma xidmətlərində dünya markası olan qlobal kuryer şirkətləri ilə ayaqlaşmalı olan dövlət poçt xidmətləri qiymətlərini də buna görə tənzimləməli olur. Bu isə adət etdiyimiz qiymətlərin bahalaşması, əlçatanlığın azalması deməkdir. Çünki, vətəndaş üçün dövlət poçtu qiymətlərnin ucuz olması baxımından sərfəli idi, amma etiraf etmək lazımdır ki, kuryer şirkətlərində qiymətlər daha yüksəkdir.

Doğrudur, dövlət poçt xidməti hər baxımdan sərfəlidir, ən ucqar bölgələrdə belə poçt şöbələrinin olması hamı üçün əlçatanlığından xəbər verir, amma bəzən sürətli xidmət imkanları zəif olur. Sürət əsrində istehlakçını razı sala bilmək üçün xidmətlərin də sürətlənməsi əsas şərtlərdəndir. Qlobal kuryer şirkətləri öz xidmətinin əsasən şəhərlərdə, biznes sektorunda, o cümlədən nisbətən baha qiymətlərlə təklif edir, dövlət poçtu isə hər kəs üçün bərabər imkan yaradır, ölkənin ən ucqar kəndlərində belə xidmət göstərir.

Poçt rabitəsi strateji sahədir, dövlətin nəzarətində olduğu üçün etibarlılığı da alternativlərinə nəzərən daha çoxdur. Hər nə qədər özəl kuryer şirkətləri yaransa da, daha çevik, daha dinamik xidmət təklif etsələr də, dövlət poçt şəbəkəsi olmasa ölkənin rəsmi informasiya mübadiləsi çətinləşər. Poçt xidməti dövlət və vətəndaş arasında körpüdür. Rəqəmsallıq zamanın tələbidir, amma bu tələb bizi ənənəmizdən, tariximizdən qoparırsa milli poçt sistemi bizi tariximizə bağlayır. Çünki rəqəmsallıq insanları təməl ehtiyacdan - ünsiyyətdən uzaqlaşdırır, poçt isə ənənəvi ünsiyyət vəd edir. Unutmayaq ki, poçt məktubları, markalar və ənənəvi rabitə formaları həm də mədəni irs deməkdir. Ənənəni qorumaq, irsinə sahib çıxmaq milli kimliyin qorunması deməkdir.

***Lalə Mehralı***



# Yazıq hərflər, nöqtələr, vergüllər...

**MƏTANƏT**

***Bizə həmişə elə gəlir ki, yazıq yalnız canlılar ola bilər. Məsələn, bədbəxt bir hadisənin qurbanı olan adama ürəyimiz yanıb, yazıq demişik. Bir xəstəlikdən əziyyət çəkən insan üçün ürəyimiz sızlayıb, yazıq, demişik. Valideynini itirmiş bir körpə üçün, yazıq, demişik. Çünki bu, insanpərvərlikdən gəlir. Axı biz insanıq. Bir-birimizə yanmasaq, bəs halımıza kim yanacaq? Yazıq sözünü bir də təəssüf edərkən söyləyirik. Məsələn, birinin ağlı qaçanda, ağlına gələni danışanda, deyirik ki, yazıq, niyə bu günə düşüb?***

Biz bəzən elə ürəyiyanar oluruq ki, heyvanlara da yazığımız gəlir. Yazıqdırlar deyib, onlar üçün yem alırıq, müəyyən yerlərə su qoyuruq. Məsələn, bir pişiyin küçədə axsadığını görəndə "yazıqdır",- deyib ona yardım etməyə çalışırıq. Bir qanadı qırılmış quşun yerdə əziyyət çəkdiyini görəndə yenə də "yazıqdır",- deyib yardım etməyə çalışırıq ki, ölməsin, həyata qayıtsın. Bir evdə quşu qəfəsdə görəndə deyirik ki, nə insafsızdır bunlar, yazıq deyil, quşu niyə qəfəsə salırsınız ki?.. Balıqları akvariumda görəndə də eyni hissləri yaşayırıq ki, yazıqlar burada oksigensiz qalıb öləcəklər.

Bəli, ətrafımızda canlı nə varsa, onun üçün təhlükə yaranan an "yazıq",- deyib xilasına qaçırıq. Çünki özümüz də canlıyıq və hər bir canlının düşdüyü yazıq vəziyyətinə biz də düşə bilərik.

Lakin tək canlılar yazıqdırmı? Heç bu barədə düşünən olubmu? Vallah, son dövrdə bəzi mətbuat orqanlarında oxuduğumuz yazılar və yaxud bəzi dövlət qurumlarında rastlaşdığımız sənədlər olur ki, bax, əsl yazığın hərf, nöqtə və vergüllərin olduğunu söyləyir.

Nə olar ki, cansız olanda. Cansız olanda adam ona bu qədər məsuliyyətsizliklə, necə gəldi yanaşar? Bir mətn oxuyursan, həm də adi mətn yox, xəbər, məqalə, məktub, deyirsən, İlahi, nə səbəbdən insanlar bu qədər acıqla qarşılaşıb, bu hərfləri yeyib, üzərindən də su içiblər... Hələ nöqtə və vergülləri, digər durğu işarələrini demirık. İndi müasir gəncliyin bəzi nümayəndələri necə ki, əyin-başında, danışığında, davranışında dəblə gedir, dilimizin qrammatikasına da əl gəzdirib, onu dəblə ayaqlaşmağa vadar ediblər. Odur ki, ta durğu işarələri dəbdən düşüb. Onlara ehtiyac duyulmur. Vergüllər ümumiyyətlə, unudulub, nöqtə də ki, yada düşəndən düşənə qoyulur.

Beləliklə də oxuduğumuz xəbər, məqalə və məktublardan əsla baş açmayıb, başlayırıq yenidən oxumağa. Öz gücümüzə bir şey başa düşdük, düşdük, düşmədiksə, atırıq bir kənara. Yəni deməyim odur ki, tək canlılar yazıq deyil. Onlardan da yazığı var, bunlar da hərf, nöqtə və vergüllərdir.

Düşünürsən ki, bax bu qrammatikamızın nə günahı var ki, insanlar onu bu günə qoyurlar? Ay qardaşlar, ay bacılar, yaza bilmirsiniz, gedin, bildiyiniz işlə məşğul olun da. Yaza bilmirsiniz, nöqtənin harada, vergülün harada olacağını bilmirsinizsə, nə gəzirsiniz mətbuatda, nə gəzirsiniz dövlət qurumlarında? O qədər özəl işlər var ki, gedin başınızı salın aşağıya, özünüzə uyğun bir işlə məşğul olun da...Yazıq deyil bu hərflər, nöqtə və vergüllər? Nədir onların günahı?

Hə, indi bəlkə onu da arzulayanlar var ki, nə olardı, Allah, elə bir qurğu olardı, bu hərfləri, nöqtə və vergülləri "kışlayıb" öz yerlərinə qovalayardı. Belə görürəm ki, onu da tapıb ortaya çıxaracaqlar. Necə ki, yerində olmayanlar var...

***ABŞ prezidenti bəyan edib ki, Rusiyanın Kiyevlə birbaşa danışıqlardan imtina etməsi ilə bağlı Ağ Evdə səbirsizlik artdığından, o, "Tomaqavk" raketlərinin Ukraynaya göndərilməsi ilə bağlı "guya qərar qəbul edib". Ukrayna bu fikri Vaşinqtona təsdiqləyib, lakin qeyd edib ki, Amerika prezidentinin sözləri o qədər də aydın deyil.***

# Ukrayna üçün Tomahawk

## *Trampın bəyanatında səhv nədir?*



### Trampın dedikləri

Ağ Ev rəhbəri Ukraynaya uzaqmənzilli Tomaqavk raketlərinin tədarükü ilə bağlı qərar verməyə yaxın olduğunu bildirərək, əvvəlcə hədəflərin siyahısını görmək istədiyini bildirib. "Yəqin ki, mən bir növ qərar vermişəm. Düşünürəm ki, onlarla nə etdiklərini, onları hara göndərdiklərini, yəqin ki, bilmək istəyirəm. Bu sualı verməliyəm", - Tramp deyib. ABŞ prezidenti həmçinin Oval Ofisdə jurnalistlərə deyib ki, o, "eskalasiya gözləmir".

### Ukrayna raketlərdən necə istifadə edə bilər

1600-2500 kilometr məsafə və təxminən




400-450 kiloqram ağırlığında güclü döyüş başlığı ilə Tomahawks Ukraynanın Rusiya ərazisinə endirdiyi zərbələri gücləndirə bilər. Ümumiyyətlə, raketlər aşağı hündürlükdə uça, yayınma manevrləri edə və uçuşun ortasında yenidən proqramlaşdırıla bilər. Ukrayna Müdafiə Qüvvələri, ehtimal ki, rusların Ukraynanın mülki şəhərlərinə hücum etmək üçün istifadə etdiyi düşmənin hərbi obyektlərinə, logistika, hava hücumundan müdafiə sistemlərinə və hərbi aerodromlara zərbələr endirmək üçün Tomaqavklardan istifadə edəcək. Kiyev də raketlərdən Rusiyanın enerji obyektlərinə zərbələrini artırmaq üçün istifadə edə bilər.

### Texniki maneələr

Məlum olduğu kimi, Tomaqavklar dəniz platformalarından, o cümlədən sualtı qayıqlardan və suüstü gəmilərdən buraxılır. Raketlərin quruda yerləşən versiyası Tomahawk deyil, Gryphon adlanır, lakin onlar istismardan çıxarılıb. Buna görə də Ukraynanın Tomahawks-dan istifadə etməsi üçün iki variant var: birincisi, SM-6 gəmi əleyhinə raketlərin və Tomahawk Typhon raketlərinin buraxılması üçün quru platformasının ötürülməsidir (baxmayaraq ki, o, sınaqdan keçirildiyi üçün hələ döyüş istifadəsinə hazır deyil). İkincisi, Kiyev bu raketlərdən istifadə etmək üçün öz infrastrukturunu inkişaf etdirməli olacaq. Qeyd edək ki, Ukrayna artıq Qərb silahlarını öz hərbi imkanlarına uyğunlaşdırmaq qabiliyyətini nümayiş etdirib.

### Köçürmə şərtləri və vaxt çərçivəsi

"Tomaqavk" raketlərinin Ukraynaya təhvil verilməsi ən azı bir neçə ay çəkə bilər, - Ali Radanın Təhlükəsizlik və Müdafiə Komitəsinin sədr müavini Yeqor Çernev proqnozlaşdırır. "Bu, bizim istədiyimiz qədər tez baş verməyəcək... Təsadüfi deyil ki, Tramp demək olar ki, eskalasiyanı istəmədiyini və bu raketlərin necə istifadə olunacağına aydınlıq gətirmək istədiyini qərara aldı", - deputat hesab edir.

Onun sözlərinə görə, bu raketləri bizə versələr belə, heç olmasa əvvəlcə atmağa imkan verməyəcəklər. "Əvvəlcə bizə bir neçə, bəlkə də bir neçə onlarla raket verəcəklər, amma onları dərhal atmağa imkan verməyəcəklər və Kremlin necə reaksiya verəcəyini gözləyəcəklər. Əgər reaksiya olmasa, biz onlardan bir neçəsi ilə Rusiya sərhədini vura bilərik. Əgər Putin hələ də danışıqlardan imtina etsə, uçuş məsafəsini bir az da artıra bilərik.

ABŞ prezidenti Donald Tramp bəyan edib ki, Rusiyanın Ukraynaya qarşı müharibəsini bitirmək Yaxın Şərqdə sülhə nail olmaqdan daha çətin ola bilər. O, bu barədə Kanadanın baş naziri Mark Karni ilə görüşü zamanı bildirib. Trampın sözlərinə görə, Yaxın Şərqdə sülhün bərqərar edilməsinə dair razılaşma artıq yaxındır. "On milyonlarla insan öldürüldükdən" sonra müharibəni bitirmək şansı var. ABŞ prezidenti əlavə edib ki, Rusiyanın Ukraynaya qarşı müharibəsi davam edir və "keçən həftə 7812 nəfər həlak olub". Bunlar əsasən əsgərlərdir. "Bu, çılğınlıqdır, sadəcə dəlilikdir. Bunun sadə məsələ olacağını düşünürdüm. Putinlə (Rusiya diktatoru Vladimir Putin - red.) yaxşı münasibətim var və bu məsələnin həll oluna biləcəyini düşünürdüm. Mən ondan çox məyus oldum, çünki bunun həllinin asan olacağını düşünürdüm, amma məlum oldu ki, bu, Yaxın Şərqdən daha mürəkkəbdir", - Tramp deyib.

Xatırladaq ki, Tramp HƏMAS ilə çox müsbət danışıqların aparıldığını və Yaxın Şərqdə sülhə doğru sürətli irəliləyişin olduğunu bildirib.

### Putin ABŞ-ı hədələyir

Amerikanın uzaqmənzilli "Tomaqavk" qanadlı raketlərinin Ukraynaya çatdırılması Moskva ilə Vaşinqton arasında "münasibətləri pozacaq". Rusiya mətbuatının yaydığı məlumata görə, bunu Kremlin sahibi Vladimir Putin deyib. Rusiyalı təbliğatçı Pavel Zarubinə verdiyi şərhdə Rusiya lideri bildirib ki, belə bir addım Rusiya-Amerika münasibətlərini korlaya bilər. "Siz ABŞ prezidentinin adını çəkdiniz, lakin orada, məsələn, yeni silah sistemlərinin, o cümlədən uzunmənzilli yüksək dəqiqlikli "Tomahawk" sistemlərinin və sairlərin çatdırılması ilə bağlı problemlərin müzakirəsi ilə bağlı suallar var idi. Mən artıq demişəm ki, bu, əlaqələrimizin pozulmasına və ya ən azı bu münasibətlərdə artıq yaranan müsbət tendensiyalara gətirib çıxaracaq", - Putin bildirib. Rusiya lideri vurğulayıb ki, vəziyyətin inkişafı "təkcə bizdən və təkcə məndən asılı deyil".

Xatırladaq ki, BMT Baş Assambleyasının qapalı iclasında prezident Vladimir Zelenski Donald Trampdan Ukraynanı "Tomaqavk" raketləri ilə təmin etməyi xahiş edib. Onun sözlərinə görə, bu silahlar döyüş meydanında vəziyyəti əhəmiyyətli dərəcədə dəyişməyə qadirdir. Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, "Tomaqavk" raketlərinin Ukraynaya mümkün təhvil verilməsi "yeni ciddi gərginlik mərhələsi" olacaq.

Moskva ABŞ-dan Ukraynaya "Tomaqavk" qanadlı raketlərinin tədarükü ilə bağlı "daha konkret açıqlamalar" gözləyir. Kremlin sözçüsü Dmitri Peskov çərşənbə axşamı, oktyabrın 7-də rus təbliğatçılarına bildirib ki, belə bir addım "ciddi eskalasiya" olacaq. "Biz başa düşürük ki, yəqin ki, daha aydın bəyanatlar gözləməliyik, əgər varsa... Silah tədarükü ilə bağlı, onlar əvvəlcə baş verir, sonra bəyanatlar verilir - ən azı Bayden administrasiyası dövründə həmişə belə olub, biz bunu yaxşı bilirik. Bu dəfə görəcəyik" deyib. Kremlin sözçüsü Vladimir Putinin Tomaqavksla bağlı "birmənalı bəyanat" verdiyini xatırladıb. "Biz müxtəlif nüansları bir kənara qoyaraq, raketlərdən danışırıq, onlar da nüvə gücünə malik ola bilər. Ona görə də bu, həqiqətən ciddi eskalasiya mərhələsidir", - Peskov əlavə edib.

Xatırladaq ki, oktyabrın 6-da ABŞ prezidenti Donald Tramp bəyan etmişdi ki, o, Moskvanın Kiyevlə birbaşa danışıqlardan imtina etməsinə Ağ Evin səbrini itirdiyi üçün Ukraynaya "Tomaqavk" raketləri göndərmək barədə "guya qərar qəbul edib". Ukrayna bu fikri Vaşinqtona təsdiqləyib, lakin Amerika prezidentinin sözlərinin o qədər də düz olmadığını qeyd edib.

### PUA-lara qarşı



### Çin radarları

Rusiya ordusu Ukrayna pilotsuz uçan aparatlarına qarşı mübarizə aparmaq üçün Çin kommersiya radarlarından FPV ləngimə qurğularından istifadə etməyə başlayıb. Bu barədə "Militarnye" portalı məlumat yayıb. Bu radarlar 11-ci Ordu Korpusunun 22-ci zenit-raket alayında xidmət zamanı müşahidə edilib. Hava hücumundan müdafiə topçuları Zhejiang Fanshuang Technology şirkətinin istehsalı olan portativ radardan istifadə ediblər. Bu cihaz 5, 10 və 20 km məsafəyə malik versiyalarda mövcuddur və Çin bazarlarında satılır. Qiymət konfiqurasiyadan asılıdır, ən bahalı versiyanın qiyməti təxminən 220.000-230.000 dollardır.

Məqalədə deyilir: "Radarın "qara siyahıları" və "ağ siyahıları" var ki, bu da identifikasiyanı sürətləndirmək və dostluq atəşi riskini azaltmaq üçün öz dost dronlarınızı əlavə etməyə imkan verir". İstehsalçı həmçinin iddia edir ki, sistem müşahidə zonasında dronları və təyyarənin uçuş marşrutu əsasında operatorun təxmini yerini dəqiq müəyyən etməyə qadirdir. İnternetə sızan fotolar Ukraynaya məxsus Leleka-100M2, MiniShark-D, Vector, Heavy Shot, Darts və Distractor pilotsuz təyyarələrinin radar tərəfindən tutulduğunu göstərir.

***V.VƏLİYEV***
***P.S. Məqalə xarici mənbələrdən əldə edilən faktlar əsasında hazırlanıb***

*EKSPERT RƏYLƏRİ*

# “Toylarımız kreativ bir biznes sənayesinə çevrilib”

”Düşünürəm ki, bu, ictimai psixologiyamızda və düşüncəmizdə mövcud olan depressiv və mənəvi amillərlə bağlıdır. Bilirsiniz ki, Azərbaycan insanı uzun illər boyu müxtəlif imperiyaların işğalı altında yaşamağa məcbur olub. Nəticədə cəmiyyətin şüurunda bir növ çatışmazlıq sindromu formalaşıb”. Bu fikirləri SİA-ya açıqlamasında yazıçı-kulturo-





loq Aydın Xan Əbilov bildirib.

Onun sözlərinə görə, təəssüf ki, bu barədə ölkəmizdə az danışılır, halbuki xarici ölkələrdə kulturoloqlar, filosoflar və tədqiqatçılar bu sahədə çoxlu araşdırmalar aparıblar. Bizim tarix elmi isə daha çox müsbət məqamları qabartmağa üstünlük verir və buna görə də bəzi ictimai problemlərin araşdırılmasına kifayət qədər diqqət ayrılmır: ”İndinin özündə də bizdə populyar tarix və etnoqrafik araşdırmalar ön plandadır. Təəssüf ki, elmi əsərləri təsdiq edən qurumlar və nəşriyyatlar da bu istiqamətə lazımi maraq göstərmirlər. Eyni zamanda, bu sahədə rəy və ön söz yazan tədqiqatçılar da bu mövzuya toxunmaqdan çəkinirlər. Toy və yas mərasimlərinin təmtəraqlı keçirilməsi məhz bu ictimai və mənəvi boşluqlardan qaynaqlanır: ”Biz bəzən başqalarına baxıb yaxşı nümunələr götürmək əvəzinə, mənasız adətləri təkrarlayırıq. Çalışırıq ki, toylarımızı kralların övladlarının toyları kimi edək. İmkan olsa, 40 gün, 40 gecə davam etdirərik. Yas mərasimlərində də eyni vəziyyətdir. Tanınmış tarixi şəxsiyyətlərin vəfatı zamanı uzunmüddətli yas anlaşılandır, çünki bu, dövlət və xalqın kədərini ifadə edir. Amma kasıb və orta təbəqənin 40 gün, hətta 1 il yas saxlaması, kredit götürüb ehsan verməsi nə iqtisadi, nə də məntiqi baxımdan doğru deyil. Bəzən insanlar diri olanda etmədikləri ehtiramı, sanki öləndən sonra göstərməyə çalışırlar”.

O, əlavə edib ki, toy mərasimlərinə xərclənən pullarla yeni evlənən cütlüklərə mənzil almaq, ya da ipoteka üçün ilkin vəsait təmin etmək mümkündür: ”Amma indi toylarımız kreativ bir biznes sənayesinə çevrilib. Geyim, zinət əşyaları, süfrə bəzəyi, musiqiçilər, aparıcılar, fotoqraflar, jurnalistlər - bütün bunlar birlikdə böyük bir israfçılıq sahəsi yaradıb. Nəticədə, kredit götürüb bu mərasimləri keçirən insanlar cəmiyyətin iqtisadi yükünü artırır. Toyda da, yasda da əsas məqsəd başqalarına özünü göstərmək, ”əlin oğlundan geri qalmamaq” olur”.



Aydın Xan Əbilov vurğulayıb ki, bu hal cəmiyyətin ictimai şüuruna mənfi təsir göstərir. Onun sözlərinə görə, artıq yeni nəsil nümayəndələri bu israfçılıqdan uzaq durmağa çalışır və daha sadə mərasimlərə üstünlük verir: ”Cəmiyyətdə də israfçılığa qarşı müəyyən təşəbbüslər irəli sürülür. Amma əsas məqsəd toy və yasların gözəl ənənələrini qorumaqla, onları iqtisadi və məntiqli çərçivədə keçirmək olmalıdır”.

”Heydər” məscidinin imamı, Qafqaz Müsəlmanlar İdarəsinin Qazılar Şurasının üzvü, İlahiyyatçı Rüfət Qarayev bildirib ki, İslam dinində israf bəyənilməyən əməllərdəndir: ”Qurani-Kərimdə ayədə buyurulur. Yeyin, için, amma israf etməyin. Yəni Uca Rəbbimiz bizə halal olan qidaları yeməyi, içməyi əmr edir, amma israf etməməyi də istəyir.

Başqa bir ayədə də israf edənlərin Allah tərəfindən sevilmədiyi buyurulur. Bu baxımdan Allaha inanan, Qurana inanan, Allah Rəsulunun yolu ilə gedən, Əhli-Beyti tanıyan insanlar onların həyatını özlərinə nümunə götürərək israf əməllərdən uzaq olarlar. Təbii ki, bu mövzuda din xadimləri heç kimi məcbur edə bilməz. Ancaq bizi israf etməməyə dinimiz məcbur edir və əmr edir ki, biz israf etməyək. Bu kimi əməllərdən də yalnız tam inanan insanlar uzaq dura bilərlər. Əgər bir insanın imanında zəiflik varsa, təbii ki, Allahın hökmlərini də, Peyğəmbərin əmrini də yüngül sayacaq. İstəsə də, istəməsə də, özündən bir ixtiyar israf edəcək.

Hətta Həzrət Əli (ə) buyurur ki: ”Fəqirlərin ehtiyacı, zənginlərin israfı qədərdir”. Yəni, həqiqətən də zəngin insanların etdiyi israflara baxsaq, görərik ki, o israflarla fəqirlərin ehtiyacını qarşılamaq olar. Və o fəqirlər də o zənginlərin israfı ilə dolansalar, onların da fəqirliyi aradan gedər. Bu baxımdan da, istər yas mərasimi olsun, istər toy mərasimi olsun, və yaxud digər məclislər olsun, müsəlmanlar israf olan işlərdən, əməllərdən çəkinməlidirlər. Təkcə israf yeməkdə, içməkdə deyil. Eyni zamanda vaxtda israf var, zamanda israf var, sözdə də israf var. Yəni, lazımsız, Allahın sevmədiyi nə əməllər varsa, onların da israfı həyatımızda olmuş olur”.

***Ziya Hikmətoğlu***

# “Bu torpaqların bərpası yalnız minalardan tam təmizlənməsi ilə mümkündür”

*MÜNASİBƏT*

“Azərbaycan Respublikası müharibə zamanı bir sıra problemlərlə üzləşdi. Amma onlardan ən dəhşətlisi ondan ibarətdir ki, mənfur düşmən ölkəmizin böyük ərazilərində milyondan artıq mina və partlayıcı qurğu yerləşdirib. Demək olar ki, müharibə bitsə də, Ermənistanın mina terroru Azərbaycan xalqına qarşı hələ də qüvvəsini saxlayır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.



O bildirib ki, bu, tamamilə yolverilməz bir haldır və Azərbaycan bu məsələ ilə bağlı dəfələrlə beynəlxalq təşkilatlara, aidiyyəti qurumlara müraciət edib: ”Təəssüf ki, necə ki, işğal dövründə beynəlxalq ictimaiyyətdən ciddi reaksiya və təzyiq görmədik, eləcə də mina məsələsində də eyni vəziyyət müşahidə olunur. Cüzi yardımlar olsa da, əsas yük yenə Azərbaycanın üzərinə düşür.Mina təmizləmə prosesi olduqca çətin və məsuliyyətli bir işdir. Bu prosesdə xüsusi texnika və sursatlardan istifadə olunur. Həmin avadanlıqlar həm baha, həm də çətin əldə ediləndir. Bundan əlavə, bu texnikanı idarə edəcək peşəkar kadrların hazırlanması da həm vaxt, həm də maddi resurs tələb edir. Buna baxmayaraq, Azərbaycan bu işi öz gücü ilə həyata keçirir və bu sahədə də dünya birliyinin ikili standartlarının şahidi oluruq. Halbuki Azərbaycan həm müharibədən zərərçəkmiş ölkədir, həm də 20 faiz ərazisi dağıdılmış vəziyyətdə geri qaytarılıb. Bu torpaqların bərpası isə yalnız minalardan tam təmizlənməsi ilə mümkündür.

Burada vətəndaş məsuliyyəti xüsusilə önəmlidir. İnsanlar təmizlənməmiş ərazilərə daxil olmamalıdırlar, çünki minalı zonalara girmək ölümlə nəticələnə bilər. Təəssüf ki, bəzi hallarda xəbərdarlıqlara baxmayaraq, insanlar özbaşına bu ərazilərə daxil olur və nəticədə həyatlarını və ya sağlamlıqlarını itirirlər.

Ən böyük dəstək və yardım vətəndaşların təmkinli və məsuliyyətli davranmasıdır. Belə olarsa, minatəmizləmə işlərini aparan mütəxəssislər öz vəzifələrini daha rahat və təhlükəsiz şəkildə həyata keçirə bilərlər. Çünki bu, son dərəcə dəqiqlik və diqqət tələb edən bir prosesdir və hər bir ehtiyatsızlıq faciəyə səbəb ola bilər. Eyni zamanda, qardaş türk dövlətlərinin də bu məsələdə Azərbaycana dəstək verəcəyinə böyük ümid bəslənilir. Onlar bu çağırışları eşidiblər və Azərbaycanın hansı çətinliklərlə üzləşdiyini yaxşı bilirlər. Bu birliyimiz və həmrəyliyimiz, şübhəsiz ki, ölkəmizin mina bəlasından tezliklə xilas olmasına töhfə verəcək”.

***Günel Fərzəliyeva***

# “Bakcell” lotereyasında ”Zeekr 001” üçün geri sayım başladı

***İnnovasiya lideri ”Bakcell”in süni intellekt əsaslı mega lotereyası abunəçilər arasında həyəcanı getdikcə artırır. Bu gün daha 3 abunəçi ”iPhone 17” qazanaraq qaliblər sırasına qoşulub. Beləliklə, artıq 4 ”iPhone 17” sahibinin adı məlumdur.***




”Zeekr 001” qalibi 8 oktyabrda açıqlanacaq!

”Bakcell” abunəçiləri hər gün ”iPhone 17”, hər həftə ”Zeekr 001”, finalda isə ”Porsche Cayenne” qazanmaq imkanı əldə edirlər. Sən də süni intellektin seçdiyi növbəti qalib ola bilərsən!

Qalib olmaq indi çox asandır!

Sadəcə ”Bakcell”in ”Şans” paketlərindən birini al və şansını 8 dəfəyədək artır:

o 1 AZN-lik ”Şans” paketi - 3 şans + 10 şəbəkədaxili dəqiqə - *808#3#YES

o 5 AZN-lik ”Şans” paketi - 25 şans + 100 şəbəkədaxili dəqiqə - *808#25#YES

o 20 AZN-lik ”Şans” paketi - 150 şans + 400 şəbəkədaxili dəqiqə - *808#150#YES

Sən də ”Bakcell”lə qazananlar arasında ol!

Ətraflı məlumat üçün: lotereya.bakcell.com

”Bakcell” haqqında

”Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan ”Bakcell” süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir. ”Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən ”NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Mükəmməl olmaq təzyiqi - sosial mediada ideallıq sindromu və insan psixologiyasına təsirləri

***Bugünkü dünyada sosial media sadəcə ünsiyyət vasitəsi deyil, həm də kimliyimizi formalaşdırdığımız, özümüzü göstərdiyimiz bir rəqəmsal səhnədir. Bu səhnədə hər kəs özünü daha uğurlu, daha gözəl, daha xoşbəxt təqdim etməyə çalışır. Beləliklə, "mükəmməl olmaq" yalnız şəxsi arzu yox, ictimai gözlənti halına gəlir. Psixoloqlar bunu "ideallıq sindromu" adlandırır və vurğulayırlar ki, bu sindrom insanın həm özünə münasibətini, həm də başqaları ilə ünsiyyətini kökündən dəyişir. İnstaqramda filtrlərlə düzəldilmiş şəkillər, "mükəmməl bədən" standartları, "ideal münasibət" paylaşımları real həyatla insanın özünü müqayisə etməsinə gətirib çıxarır. Bunun nəticəsində gənclərdə, xüsusilə də qadınlarda, özünə güvən azalır, narahatlıq və depressiv simptomlar artır.***



İdeallıq sindromu sadəcə psixoloji bir vəziyyət deyil, həm də sosial bir konstruksiyadır. O, insanların "daha yaxşı" və "daha gözəl" görünmək üçün dayanmadan özünü dəyişməyə məcbur hiss etməsindən ibarətdir. Əslində, insanın mükəmməl obraz yaratmaq arzusu qədim mədəniyyətlərdən başlayır: yunan heykəltəraşlığında ideal bədən nisbətləri, renessans tablolarında harmonik gözəllik təsvirləri, 19-cu əsrin ədəbiyyatında qəhrəmanlıq və fədakarlıq idealları buna nümunədir. Bu, insanlığın estetik və mənəvi axtarışlarının bir hissəsi idi.

Lakin sosial medianın gətirdiyi fərq odur ki, indi bu ideal obrazlar artıq əlçatmaz bir heykəldə, yaxud ədəbiyyatın qəhrəmanında deyil, elə bizim gündəlik həyatımızın içində görünür. İnsan öz dostunu, qonşusunu və ya həmkarını "filtrdən keçmiş" şəklində gördükcə, sanki "real həyat" ilə "ideallaşdırılmış həyat" arasındakı sərhəd bulanır. Beləliklə, əvvəllər kənardan heyranlıqla baxılan obraz indi hər kəsin "mütləq malik olması gərəkən" bir standart kimi təqdim olunur (Marwick, 2015).

Sosioloqlar qeyd edirlər ki, bu dəyişiklik "şəxsi kimliyin brendləşməsi" ilə sıx bağlıdır. Sosial mediada hər bir insan özünü kiçik bir marka kimi idarə edir: profil şəkli, paylaşımlar, izləyici sayı və hətta "like"ların çoxluğu onun dəyərinin ölçü vahidinə çevrilir. Bu, "performativ kimlik" anlayışına uyğundur: insan sadəcə kim olduğunu yaşamır, kim olduğunu göstərmək üçün fasiləsiz performans sərgiləyir (Goffman, 1959). Bu prosesdə "filtr mədəniyyəti" xüsusi rol oynayır. Sadəcə estetik düzəliş deyil, həm də özünə dair ictimai təsəvvürün dəyişdirilməsi baş verir. Yəni şəkilə qoyulan bir filtr bədənin, üzün, dərinin görüntüsünü dəyişməklə yanaşı, insanın sosial imicini də dəyişir. Araşdırmalar göstərir ki, filtrlərin və foto redaktə proqramlarının geniş yayılması gənclərdə bədən məmnuniyyətsizliyini artırır və "mən niyə belə görünmürəm?" sualını doğurur. Beləliklə, ideallıq sindromu həm tarixi köklərə bağlıdır, həm də rəqəmsal dövrün yeni imkanları ilə güclənir. Əgər keçmişdə ideal obraz daha çox "nadir" və "uzaq" idi, bu gün o, hər gün qarşımıza çıxır və normaya çevrilir. Bu isə insanı sadəcə heyranlıqdan yox, həm də müqayisədən doğan təzyiqin mərkəzinə salır. İdeallıq sindromunun ən güclü təsiri insan psixikasında görünür. Sosial medianın yaratdığı "hər zaman gözəl, xoşbəxt və uğurlu olmaq" təzyiqi insanı davamlı müqayisə vəziyyətinə salır. Bu müqayisə isə nadir hallarda motivasiya doğurur, əksinə, çox zaman özünə güvənsizliyi artırır. Araşdırmalar göstərir ki, sosial mediada başqalarının "ideal" görünüşünə və həyatına baxmaq, insanın özünü mənfi qiymətləndirməsinə səbəb olur. Psixoloq Sarah Coyne qeyd edir ki, İnstaqramda çox vaxt başqalarının yalnız ən uğurlu anları paylaşıldığından, istifadəçi öz real həyatını həmin "seçilmiş fraqmentlərlə" müqayisə edir və bu, məmnuniyyətsizlik doğurur. Beləliklə, "başqasının vitrini" ilə "öz gerçəkliyi" arasındakı fərq insanı psixoloji gərginliyə salır.

Psixologiyada bu hal "sosial müqayisə nəzəriyyəsi" ilə izah olunur (Festinger, 1954). İnsan təbiətcə özünü digərləri ilə müqayisə etməyə meyllidir, amma sosial media bu müqayisəni kəskinləşdirir. Çünki ekranda görünənlər, əslində, filtrlərlə, seçilmiş kadrlarla formalaşmış reallıqdır. Nəticədə istifadəçi "hamı məndən yaxşı yaşayır" hissinə qapılır. Bu hiss davamlı narahatlıq və hətta yuxu problemləri ilə müşahidə olunur.

Mükəmməl görünmək arzusu tədricən məcburiyyətə çevrilir. İnsan yalnız başqalarının gözündə "yetərli" olmaq üçün özünü daim dəyişməli olduğunu düşünür. Psixoloq Thomas Curran bu halı "sosial şəkildə yönləndirilmiş perfeksionizm" adlandırır: insanın uğuru yalnız öz istəklərinə görə deyil, başqalarının gözləntilərinə cavab vermə məcburiyyəti ilə ölçülür. Bu, həm akademik sahədə, həm iş mühitində, həm də şəxsi münasibətlərdə "həddindən artıq özünü sübut etmə" davranışı yaradır.

Tədqiqatlar göstərir ki, sosial media istifadəsi ilə depressiv simptomlar arasında ciddi əlaqə var. Gənclər, xüsusilə də qızlar, sosial mediada daha çox vaxt keçirdikcə öz bədənindən və həyatından narazılıq artır, nəticədə özünü dəyərsiz hiss etmə halları çoxalır. Bu, həm də "emosional yanma" effekti yaradır: insan daim güclü görünməyə çalışır, amma daxildə yorğun və boş hiss edir.

İdeallıq təzyiqinin psixoloji nəticələrindən biri də sosial narahatlıqdır. İnsan hər paylaşımda "görəsən, necə görünürəm?", "dostlarım bəyənəcəkmi?", "bəs kifayət qədər like gələməsə?" suallarını özünə verir. Bu, həyatın sadə anlarını belə tamaşaçı qarşısında performansa çevrir. Goffmanın "həyat səhnədir" metaforası burada daha kəskin şəkildə aktuallaşır (Goffman, 1959).

İdeallıq sindromu təkcə insanın daxili dünyasında narahatlıq yaratmır, eyni zamanda sosial münasibətlərin formasını dəyişdirir. Sosial media üzərindən yayılan "mükəmməl" obrazlar kollektiv şüurda yeni normalar yaradır və bu normalar gündəlik həyatın ən sadə seçimlərindən tutmuş, cinsiyyət rollarına qədər bir çox sahəyə təsir göstərir. Sosioloqlar vurğulayırlar ki, sosial mediada mükəmməllik təzyiqi ən çox qadınların üzərində cəmlənir (Gill & Orgad, 2018). Onlardan həm gözəl, həm uğurlu karyeraya sahib, həm də ideal ana və həyat yoldaşı olmaları gözlənilir. Bu, feminizm nəzəriyyəsində "ikiqat yük" adlandırılan vəziyyəti daha da dərinləşdirir: qadınlar yalnız iş dünyasında deyil, ailə daxilində də performans göstərməyə məcbur hiss edirlər. Sosial media isə bu tələbləri vizual olaraq gücləndirir, çünki qadın fiqurları çox vaxt həm fiziki cazibə, həm də sosial uğurla təqdim olunur.

Əvvəllər sevgi, dostluq və ailə münasibətləri şəxsi məna daşıyırdısa, indi bu münasibətlər də ictimai tamaşanın bir parçasına çevrilir. "İdeal cütlüklər", "romantik jestlər" və "xoşbəxt ailə tabloları" sosial mediada paylaşılaraq, başqaları üçün izləniləcək bir məzmuna dönür. Bu isə real münasibətlərin içində də təzyiq yaradır: tərəflər özlərini paylaşılacaq qədər "gözəl" anlar yaratmağa məcbur hiss edirlər. Mükəmməl görünüş və həyat arzusu əslində böyük iqtisadi sahələri dəstəkləyir: moda, kosmetika, diet və idman sənayesi milyardlarla dollar dəyərində gəlir əldə edir. Sosial mediada "ideal" obrazlar, çox vaxt istehlak məhsulları ilə birlikdə təqdim olunur. Bu, "özünü inkişaf" adı altında dayanmadan yeni məhsul almağa təşviq edən gizli bir mexanizmdir. Beləliklə, ideallıq sindromu yalnız psixoloji və sosial deyil, həm də iqtisadi bir sistemin davamlılığını təmin edir.

Cəmiyyət daxilində paylaşım və həmrəylik hissi tədricən zəifləyir. Çünki insanlar daha çox öz şəxsi imiclərinə fokuslanır, digərlərinin gözündə necə görünəcəklərini prioritet sayırlar. Bu hal "rəqabətli fərdiyyətçilik" anlayışını gücləndirir: sosial münasibətlər qarşılıqlı dəstək üzərində deyil, daha çox "kimin həyatı daha gözəldir?" yarışı üzərində qurulur.

Ənənəvi olaraq cəmiyyətlərdə normalar uzun illər ərzində formalaşır və sabit qalırdı. Amma sosial medianın təsiri ilə "yeni normalar" çox sürətlə yaranır. Bir dövrdə "incə bədən" norması önə çıxırsa, digər dövrdə "idmançı bədən" və ya "kəskin makiyaj" trendə çevrilir. Bu dəyişkənlik fərdləri daimi uyğunlaşma vəziyyətində saxlayır. Psixoloqlar bu halı "normaların mayeləşməsi" (liquid norms) adlandırır və qeyd edirlər ki, bu daimi təzyiq sosial yorğunluğun əsas səbəblərindəndir.

İdeallıq sindromunun yaratdığı təzyiq qaçılmaz görünə bilər, lakin həm fərdi, həm də kollektiv səviyyədə bu prosesə qarşı çıxmaq mümkündür. Əsas məsələ insanın sosial medianı necə istifadə etməsi və ona necə yanaşması ilə bağlıdır. Psixoloqların tövsiyələrinə görə, sosial media istifadəsini müəyyən vaxt çərçivəsinə salmaq, psixoloji sağlamlığa müsbət təsir göstərir. "Digital detoks" anlayışı qısa müddətli sosial media fasilələrindən ibarətdir və insanın diqqətini real həyata yönəltməsinə imkan yaradır. Tədqiqatlar göstərir ki, sosial mediadan 1 həftəlik fasilə belə insanların xoşbəxtlik səviyyəsini artırır. Bu, ideallıq təzyiqinin təsirini zəiflətmək üçün ən sadə və praktik addımlardan biridir.

Son illərdə müxtəlif beynəlxalq kampaniyalar (məsələn, Dove-un "Real Beauty" layihəsi və ya #BodyPositivity hərəkatı) sosial mediada ideal obrazlara qarşı alternativ təmsillər təqdim edir. Bu kampaniyalar fərqli bədən formalarını, yaş qruplarını və həyat hekayələrini ön plana çıxararaq, insanlara "həqiqi görünüş də dəyərli ola bilər" mesajını verir. Belə təşəbbüslər ideallıq sindromunun ənənəvi çərçivəsini sarsıdır və qəbul mədəniyyətini gücləndirir.

Gənclərin sosial media məzmununu korkoranə qəbul etməməsi üçün maarifləndirmə vacibdir. Təhsil sistemində "rəqəmsal savadlılıq" və "media təhlili" dərsləri bu baxımdan mühüm rol oynayır. İnsanların gördükləri obrazların süni şəkildə yaradıldığını anlamaları, müqayisə təzyiqini azaldır. Psixoloqlar vurğulayırlar ki, tənqidi düşüncə bacarığı ideallıq sindromunun psixoloji təsirlərinə qarşı ən güclü qoruyucu faktorlardan biridir.

Fərdlərin yalnız özləri ilə mübarizə aparmaları bəzən kifayət etmir. Bu səbəbdən kollektiv dəstək mühümdür: dost dairəsində və ailədə "real görünüşün" təqdir edilməsi, sosial mediada filtrlənməmiş fotoların paylaşılması kimi sadə jestlər belə, təzyiqi azaltmağa kömək edir. Araşdırmalar göstərir ki, dəstəkləyici sosial mühit insanın özünə münasibətini gücləndirir və psixoloji sabitliyi artırır.

Sosial media yalnız mənfi təsirləri ilə məhdud deyil. O, eyni zamanda öyrənmə, özünüifadə və yaradıcılıq üçün güclü bir platformadır. Musiqi, incəsənət, elmi-populyar biliklər və sosial kampaniyalar vasitəsilə istifadəçilər öz potensiallarını inkişaf etdirə bilirlər. Əsas məsələ məqsədli istifadədir: əgər insan sosial medianı sadəcə "özünü göstərmək" yox, həm də "özünü inkişaf etdirmək" üçün istifadə edirsə, o zaman ideallıq sindromunun zərərli tərəflərindən daha çox faydalı imkanlarını önə çıxara bilir. "Mükəmməl olmaq" arzusu insan tarixində həmişə mövcud olub, lakin sosial medianın yaratdığı sürətli və filtrlənmiş reallıq bu arzunu psixoloji təzyiqə çevirib. İdeallıq sindromu artıq fərdi seçimdən çox, kollektiv gözlənti halına gəlib: gözəl görünmək, uğurlu olmaq və xoşbəxt görünmək sanki hər kəsin üzərinə yüklənmiş bir borca çevrilib.

Psixoloji baxımdan bu sindrom insanın özünüqiymətləndirməsini zəiflədir, narahatlıq və depressiyanı artırır, sosial baxımdan isə münasibətləri performansa, həyatı isə yarışa çevirir. Eyni zamanda bu "mükəmməllik mədəniyyəti" böyük iqtisadi sistemlərin davamlılığını təmin edir, yəni təkcə fərdlərin deyil, həm də bazarın maraqlarına xidmət edir. Ancaq unudulmamalıdır ki, mükəmməllik təzyiqi dəyişməz deyil. Onunla mübarizə aparmaq mümkündür: balanslı sosial media istifadəsi, tənqidi düşüncənin gücləndirilməsi, real həyat kampaniyaları və kollektiv dəstək bu təzyiqi zəiflədə bilər. Ən əsası isə, insanın dəyərinin "like" sayında və ya filtrlənmiş şəkillərdə deyil, onun gerçək təcrübələrində, zəifliklərində və orijinallığında gizli olduğunu qəbul etməkdir.

Sosioloq Zygmunt Baumanın dediyi kimi, "müasir həyat maye kimidir: sabit deyil, daim dəyişir". Bu mayeliyin içində insanı qoruyan yeganə dəyər onun özünün kim olduğunu dürüst şəkildə qəbul etməsidir. Sosial media bəzən bizi ideal obrazların kölgəsində boğsa da, eyni zamanda insanlara "həqiqi mən"ini paylaşmaq fürsəti də verir. Nəticədə, mükəmməl olmaq zəruri deyil - yetərli olmaq kifayətdir. Həyatı həqiqi, münasibətləri səmimi, insanı isə özünə yaxın edən də elə bu "yetərlilik"dir. Çünki həqiqi xoşbəxtlik başqalarının gözündə mükəmməl görünməkdə yox, öz gözündə dəyərli qalmaqdadır.

*Nigar Şahverdiyeva*

# Müharibənin ən böyük nəticəsi demoqrafik fəlakətdir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## Ukrayna əhalisi son 30 ildə 50 milyondan 20 milyonadək azalıb






***Ukrayna mətbuatında yayılan məlumatlara görə, ölkə əhalisinin sayı 28,7 milyon nəfərə düşüb. Lakin bir çox ekspertlər hesab edirlər ki, bu rəsmi rəqəm həqiqəti əks etdirmir, reallıqda əhali sayı bu rəqəmin yarısı qədərdir. Ukrayna müxalifəti qeyd edir ki, ölkə hakimiyyəti ölkənin son illərdə yaşadığı demoqrafik fəlakətin miqyasını gizlətmək üçün mövcud əhali sayını şişirdir.***

”Ukraina National News” xəbər verir ki, bu, 2025-ci il üçün yaşayış yeri barədə məlumat təqdim edənlərin sayıdır. Əhali haqqında məlumatların toplanması metodologiyası açıqlanmır. Bu o deməkdir ki, biz bu məlumatı kimin və necə təqdim etdiyi barədə heç nə bilmirik, o cümlədən onu kimin emal etdiyi və hansı metodologiyadan istifadə etdiyi. Məsələn, yaşayış yeri dedikdə nə başa düşülür- daimi və ya müvəqqəti yaşayış yeri? Bu yaşayış yerləri necə müəyyən edilir (qeydiyyat, müvəqqəti qeydiyyat və s.)? Və bu hesablama zamanı Ukraynadan kənarda olmasına baxmayaraq, əvvəlki yaşayış yeri haqqında məlumat vermək mümkün idimi?

Bütün bu detallar hesablamanın yekun nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məsələn, məlumdur ki, əhalinin siyahıyaalınması (və Ukraynada, görünür, elektron ekvivalent kimi bir şey aparılıb) ən azı 2 şərt tələb edir: ərazi sərhədlərinin dəqiq müəyyən edilməsi və məlumatların təqdim olunduğu müddət. Bu məsələlərdən birincisi ən problemlisidir: Kiyev Rusiyaya birləşdirilmiş regionları tanımır və görünür, onların sakinlərini də hesaba alır. Burada sual yaranır: yaşayış yeri haqqında məlumatı kim təqdim edib? Onların arasında (Krım və Sevastopol da daxil olmaqla) 7 milyona qədər insanın yaşadığı, hazırda Rusiyaya birləşmiş bölgələrin sakinləri və ya faktiki olaraq xaricdə olanlar var idimi?

Bu məlumatın verildiyi vaxtın dəqiq nöqtəsi məsələsi də eyni dərəcədə vacibdir. Fakt budur ki, əhalinin sayı təbii və miqrasiya hərəkətləri səbəbindən daim dəyişir və hətta qısa müddət ərzində əhəmiyyətli dərəcədə dəyişə bilər. Məsələn, avqustun sonlarında Ukrayna hakimiyyət orqanları nədənsə 18-22 yaş arası kişilərin xaricə getməsinə icazə vermək qərarına gəldikdən sonra sərhəddə böyük avtomobil və avtobus növbələri yaranıb. Gözləmə müddəti 20 saata qədər davam edir. Polşa Sərhəd Xidməti qeyd edib ki, bu icazədən sonra hər həftə ölkəyə Ukraynadan 95 faizi kişilər olmaqla ən azı 10 000 nəfər gəlir ki, bu da əvvəlki həftələrdən 10 dəfə çoxdur.

Ukraynanın ”Work” portalının işəgötürənlər arasında apardığı sorğuya əsasən, onların 37%-i ölkədən çıxış qadağası aradan qaldırıldıqdan sonra 18-22 yaş arası işçilərin itirilməsi ilə üzləşib. Üstəlik, kadr axınından ən çox zərər çəkənlər 1000-dən çox işçinin işlədiyi iri müəssisələrdir. Buna görə də, bu yaş qrupu üçün ölkədən çıxış qadağasının ləğvindən əvvəl və sonra Ukraynanın faktiki əhalisinin sayındakı fərq on minlərlə ola bilər.

Bu arada, Ukraynadan miqrasiya axını əvvəllər də baş verib. Dövlət Sərhəd Xidmətinin məlumatına görə, 2025-ci ilin yanvar-iyun ayları arasında ölkədən 250 min nəfər gedib. 2024-cü ilin eyni dövründə daha 400 min nəfər ölkədən gedib. Təsadüfi deyil ki, Ukraynanın keçmiş xarici işlər naziri Dmitri Kuleba sentyabrın 20-də Cənub-Şərqi Asiya ölkələrindən- Banqladeş, Nepal, Hindistan, Filippin və Vyetnamdan gələn miqrantlar üçün sərhədlərin açılmasını təklif etdi, çünki mənfi demoqrafik dinamikanı aradan qaldırmaq üçün artıq başqa yol görmür. Bir sözlə Ukraynada 30 milyona yaxın insanın hələ də yaşaması həm yerli, həm də xarici analitiklər tərəfindən şübhə altına alınır. 1991-ci ilin sonunda SSRİ dağılanda Ukraynanın əhalisi 52 milyon nəfər idi. Əhalisinə və iqtisadi potensialına görə SSRİ-nin, sonra isə MDB-nin 2-ci böyük ölkəsi 1994-cü ildən bu günə qədər davam edən davamlı demoqrafik tənəzzüllə üzləşib və əhalinin davamlı azalması prosesi gedib.

2014-cü ilin yazında Rusiyanın dəstəklədiyi tanınmamış Donbas respublikaları ilə hərbi münaqişənin başlaması bu prosesləri daha da sürətləndirdi. Ukrayna SSRİ-dən miras qalmış böyük sənayeni qoruyub saxlaya bilmədi. Buna görə də, böyük sayda əhalisi üçün artıq sadəcə iş yox idi. Müstəqilliyin ilk illərində bu axın nisbətən zəif xarakter daşısa da, sonrakı dövrdə sosial-iqtisadi çətinliklər fonunda Avropaya, Rusiyaya və digər ölkələrə miqrasiya axını sürətləndi.




2001-ci ildə- SSRİ-nin dağılmasından sonra keçirilən ilk və indiyədək yeganə- əhalinin siyahıyaalınması göstərdi ki, Ukraynada 48 milyon 457 min nəfər yaşayır ki, bu da 1989-cu il ümumittifaq siyahıyaalınması ilə müqayisədə 6,3% azalma deməkdir. Rusiya əhalisinin sayı eyni dövrdə cəmi 1,2% azalmışdı. Rusiya ilə müqayisədə Ukraynada əhalinin azalması 5 dəfə çox baş verirdi. Ukraynanın ərazisi Rusiyadan onlarla dəfə kiçik, amma daha sıx məskunlaşmış və sənaye infrastrukturunun daha yaxşı inkişaf etmiş vəziyyətdə idi, lakin əhalinin azalması Kiyevdə heç bir həyəcan yaratmadı. Üstəlik, əhalisinin əksəriyyəti rusdilli, bəzi yerlərdə isə sırf ruslardan ibarət olan Ukraynanın sənaye zonası olan cənub-şərqində depulyasiya daha şiddətli idi. Əhalinin əsasən kənd təsərrüfatında çalışdığı qərb bölgələrində doğum nisbəti daha yüksək idi və buna görə də əhalinin azalması cənub-şərqdə olduğundan daha az ifadə edilirdi.

”Avromaydan”dan sonra Ukrayna Krım, Sevastopol və Donbas bölgələrinə nəzarəti itirdi, lakin buna baxmayaraq, Kiyev Ukrayna ərazisi hesab etməkdə davam edir və əhali sayında onları da əlavə edirdi. Dövlət Statistika Xidmətinin məlumatına görə, 2022-ci ilin əvvəlinə ölkə əhalisini 41 milyon 130 min təşkil edirdi. Halbuki, hələ 2019-cu ildə Ukraynada elektron siyahıyaalma aparılıb və ona görə əhalinin sayı cəmi 37 milyon 289 min nəfər olmuşdu. Aydındır ki, Luqansk və Donetsk əhalisi bu rəqəmə daxil edilməyib, çünki Ukraynanın onların elektron məlumat mənbələrinə çıxışı yox idi. 2017-ci ilin iyun ayında Aİ ölkələri Ukraynaya vizasız giriş tətbiq edərək, Avropaya mühacirəti daha da artırdı. 2018-ci ilin fevralında Ukraynanın xarici işlər naziri P.Klimkin bildirmişdi ki, təkcə ötən il ölkəni 1 milyondan çox insan tərk edib, hər ay 100 min nəfər ölkəni tərk edir.

2022-ci ilin sentyabrında Dövlət Statistika Xidməti büdcəyə hazırlıq işləri çərçivəsində ilin əvvəlinə ölkə əhalisinin sayının 34,5 milyon nəfər təşkil etdiyini bildirirdi. Bu, Ukraynanın faktiki əhalisinin rəsmi məlumatlarda göstərildiyi kimi 41 milyon yox, ondan 6,5 milyon nəfər az olması demək idi. Rusiyanın Ukraynada həyata keçirdiyi Xüsusi Hərbi Əməliyyatın başlamasından sonra bir sıra Ukrayna şərq rayonlarına nəzarəti itirdi və hazırda Luqansk vilayəti, eləcə də Donetsk, Zaporojye və Xerson vilayətlərinin dörddə üçü üzərində faktiki olaraq heç bir nəzarətə malik deyil. Bu ərazilərdə ümumilikdə 5 milyona qədər insanın yaşadığı ehtimal olunur. 2025-ci ilin may ayına olan məlumata görə, Avropa İttifaqındakı ukraynalı qaçqınların sayı 6,3 milyondur, daha 0,5 milyonu isə ittifaqın hüdudlarından kənarda yaşayır. 2022-ci ilin dekabrına olan məlumata görə, Rusiyada Ukraynadan olan 2,9 milyon qaçqın qeydə alınıb. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, münaqişə zamanı 10 milyona yaxın insan Ukraynanı tərk edib.

Əgər 2019-cu ilin elektron siyahıyaalınmasının nəticələrini (37,3 milyon) Ukrayna əhalisinin ilkin hesablamaları kimi qəbul etsək, hazırda bu rəqəm Ukrayna mətbuatının yazdığı kimi 28,7 milyon yox, cəmi 22 milyon (10 milyon qaçqın və Rusiyaya qatılmış yeni regionlarının 5 milyon sakini) olardı. Üstəlik, bu rəqəmdə 2019-2021-ci illərdə miqrasiya axını və əhalinin təbii azalması nəzərə alınmır. Bundan başqa, hərbi əməliyyatlarda ölən Ukraynalı hərbçilərin və mülki şəxslərin sayı müxtəlif qiymətləndirmələrdə 2-3 milyon civarında qeyd olunur. Bu hesabla Ukrayna əhalisi 20 milyondan aşağı düşüb. Bir sıra ekspertlər hesab edir ki, Ukraynanın hazırkı hakimiyyəti getdikcə daha çox şübhə doğuran səfərbərlik potensialını və demoqrafik həyat qabiliyyətini Qərbə nümayiş etdirmək üçün əhali sayı ilə bağlı rəqəmləri qəsdən şişirdir.




Göründüyü kimi, müharibə özü ilə təkcə hərbi dağıntılar, iqtisadi tənəzzül, sosial problem deyil, həm də demoqrafik faciə gətirir. Dağıntıları da bərpa etmək olar, iqtisadiyyatı da, lakin insan itkilərini bərpa etmək çox çətindir. Bunun üçün opnillər tələb olunur. Bir ölkənin 50 milyondan çox əhalisinin cəmi 30 il ərzində 20 milyona düşməsi ən güclü demoqrafik və sosial faciədir. Eyni vəziyyət, müharibələrin və qarşıdurmaların ara verimədiyi Yaxış Şərqdə- Fələstin, Suriya, İraq və Əfqanıstan kimi ölkələrdə də var. Bu səbəbdən də, bütün mümkün üsullarla müharibədən yayınmaq daha məqsədəuyğundur. Necə deyərlər, ən pis sülh, ən yaxşı müharibədən üstündür.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
9 oktyabr
2025-ci il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK

Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “İmmuniteti güclü saxlamağın sirri düzgün qidalanmadadır”




“Gündəlik qidalanmada immun sistemini gücləndirmək üçün ən vacib elementlər C və D vitaminləri, sink, antioksidantlar, probiotiklər, omeqa-3 yağ turşuları və liflə zəngin qidalardır”. Bu sözləri SİA-ya açıqlamasında qida eksperti Seymur Qafarov deyib. Onun sözlərinə görə, immunitet sisteminin güclü qalması üçün balanslı və məqsədli qidalanma son dərəcə vacib amildir: ”Çünki orqanizmin müdafiə mexanizmini gücləndirən bu elementlər yalnız düzgün və müntəzəm qidalanma nəticəsində təsirini göstərir.

C vitamini orqanizmin viruslara və bakteriyalara qarşı müqavimətini artırır, D vitamini isə immun hüceyrələrinin aktivliyini tənzimləyərək orqanizmi müxtəlif infeksiyalardan qoruyur. Sink və selen kimi minerallar da immun sisteminin fəaliyyəti üçün mühüm rol oynayır, antioksidant təsir göstərərək hüceyrələri zədələnmədən qoruyur. Zəncəfil, sarıkök, qara üzüm tumu ekstraktı və sarısabır kimi bitki mənşəli əlavələr orqanizmdə iltihabı azaldır və immuniteti təbii şəkildə dəstəkləyir. Probiotiklərin gündəlik istifadəsi bağırsaq mikroflorasının sağlam qalmasına kömək edir ki, bu da ümumi immun sistemin təməl dayaqlarından biridir. Balıq yağı kapsulları isə omeqa-3 yağ turşularının ehtiyacını qarşılayaraq həm ürək-damar sistemini, həm də immuniteti gücləndirir.

Sağlam immunitet üçün yalnız düzgün qidalanma deyil, həyat tərzi də böyük əhəmiyyət daşıyır. Müntəzəm fiziki aktivlik - məsələn, həftədə ən azı 150 dəqiqə orta intensivlikdə məşq - qan dövranını yaxşılaşdırır və orqanizmin müdafiə sistemini stimullaşdırır. Yetərli yuxu, yəni gündə 7-8 saat fasiləsiz istirahət, bədənin bərpası və immun hüceyrələrinin yenilənməsi üçün vacibdir. Stressin idarə olunması da mühüm rol oynayır; meditasiya, yoga və nəfəs məşqləri əsəb sistemini sakitləşdirir, stress hormonlarının səviyyəsini azaldır. Bundan əlavə, orqanizmin normal fəaliyyəti üçün kifayət qədər su içmək lazımdır. Gündəlik 2-2.5 litr su həm hüceyrə fəaliyyətini dəstəkləyir, həm də toksinlərin orqanizmdən xaric olmasına kömək edir. Beləliklə, balanslı qidalanma, sağlam həyat tərzi, düzgün yuxu rejimi və emosional sabitlik bir yerdə immun sisteminin güclü və dayanıqlı qalmasının əsasını təşkil edir”.

*Günel Fərzəliyeva*

# Hava limanında gömrük nəzarətindən gizlədilən 365 qram qızıl aşkarlandı



Dövlət Gömrük Komitəsinin Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşlarının həyata keçirdiyi gömrük nəzarət tədbirləri nəticəsində qızıl külçələrin qanunsuz şəkildə gömrük sərhədindən keçirilməsinin qarşısı alınıb. Komitənin məlumatına görə, Dubay-Bakı aviareysi ilə gələn Azərbaycan vətəndaşının əl yüklərinə gömrük yoxlaması tətbiq edilib. Yoxlama zamanı həmin şəxsin gödəkcəsində və əl çantasında gömrük nəzarətindən gizlədilən 37 ədəd ”Pamp” markalı, ümumi təqribi çəkisi 365 qram qızıl külçə aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

*Mətləb*

# Azərbaycanda etibarnamə sistemi nə zaman ləğv edilə bilər?

## EKSPERT AÇIQLADI





Azərbaycanda avtomobil idarə etmək üçün etibarnamə sistemi hələ də qüvvədədir və bu vətəndaşlar üçün əlavə vaxt itkisi və bürokratik çətinliklər yaradır. Dünyanın əksər ölkələrində belə bir tələb artıq aradan qaldırılıb və sürücülük vəsiqəsi ilə avtomobil idarə etmək mümkündür. Ekspertlər deyir ki, yeni texnologiyalar və ”car sharing” kimi layihələr bu sistemi getdikcə daha da lazımsız edir. Bəs, Azərbaycanda etibarnamə sistemi nə zaman ləğv edilə bilər?

Məsələ ilə bağlı nəqliyyat eksperti Aslan Əsədov SİA-ya açıqlamasında bildirib ki, etibarnamə ilə bağlı demək olar ki, onun həm müsbət, həm də mənfi tərəfləri var: ”Əslində, mənfi tərəfləri demək olar ki, yoxdur. Çünki etibarnamənin əsas xüsusiyyəti ondan ibarətdir ki, vətəndaşlara xidmət edir. Yəni, vətəndaş, istədiyi halda, bu etibarnamə ilə müəyyən dərəcədə hərəkət edə, alqı-satqı həyata keçirə bilir. Bu da onun müsbət tərəfidir. Amma mənfi tərəfləri daha çox daxili məsələlərə aiddir. Yəni, etibarnaməsiz nəqliyyat vasitəsini idarə etmək məsələsi Mülki Məcəllə ilə tənzimlənir. Bəzi hallarda isə Ailə Məcəlləsində də bu tip hallarla bağlı qeydlər ola bilər. Ancaq əsas hüquqi sənəd Mülki Məcəllədir. Etibarnamənin hüquqi qüvvəsi qanunla müəyyən edilir və onun ləğvi yalnız məhkəmə qərarı, Milli Məclisin qərarı və ya cənab Prezidentin sərəncamı ilə mümkündür. Əgər məsələyə hüquqi deyil, funksional baxımdan yanaşsaq, görərik ki, etibarnamə insanlara manevr imkanları yaradır, çeviklik verir. Yəni insanlar bu vasitədən düzgün şəkildə istifadə etsələr, bu, onlara fayda verə bilər. Əks halda, ailədaxili münaqişələr, əmlak bölgüsü problemləri və ya yol-nəqliyyat hadisələri kimi risklər yarana bilər. Bu səbəbdən, cəmiyyətin hələ bu prosedurlara uyğunlaşması üçün zaman lazımdır. İnsanlar bu hüquqi mexanizmlərdən düzgün istifadə etməyi öyrənməlidirlər”.

*Arzu Qurbanlı*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**